18_27 IYUl-QARA.qxd 5/14/2026 10:01 PM Page 1


# UNİKAL

№18 (2298) 15 may 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




## "Azərbaycan onların qarşılaşdığı problemləri tam şəkildə anlayır" - Hikmət Hacıyev

*Azərbaycan Qlobal Cənub ölkələrinin qarşılaşdığı bütün çətinlikləri və problemləri tam şəkildə anlayır. "Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Qlobal Cənub QHT Platformasının (Global South NGO Platform - GSNP) I Baş Assambleyasında çıxışında deyib. O bildirib ki, Azərbaycan özünü Qlobal Cənubun bir hissəsi hesab edir: "Biz coğrafi, tarixi, mədəni baxımdan və həmçinin taleyimiz etibarilə Qlobal Cənubun bir hissəsiyik. Çünki Azərbaycan da müstəqilliyi dövründə və ümumilikdə bütün tarixi boyunca bu çətinliklərdən keçib. Xüsusilə müstəmləkəçilik...*

Səh.2

# Azərbaycanda hantavirus təhlükəsi varmı? - Bütün variantlara hazır olmalıyıq




Səh.4

## Fuad Nəcəflinin başı üstündəki "qara buludlar" sıxlaşır



*Naxçıvanda keçmiş səlahiyyətli nümayəndə Fuad Nəcəflinin ünvanına növbəti ittihamlar irəli sürülüb. Belə ki, Azərbaycan Dövlət Ehtiyatları Agentliyinin balansında olan 10 min tondan artıq buğda bazar dəyərindən xeyli aşağı qiymətə formal şəkildə Naxçıvan Taxıl Məhsulları MMC-yə satılıb.*

Səh.4

## Vətəndaşı "kredit vergisi" altında əzən oliqarxlar...




*Bu ilin əvvəllərindən etibarən Azərbaycandakı bankların kredit faizlərində artım müşahidə olunur. Hələ yanvar ayında məlum olmuşdu ki, ötən il 11-17 faizlə kredit təklif edən banklarda indi faiz dərəcəsi meyarlardan asılı olaraq 18 faizdən başlayaraq təklif edilir. Həmin vaxt iqtisadçı Xalid Kərimli bildirmişdi ki...*

Səh.7

## Regionlarda 5700 iş yeri yaradılacaq!



*Müasir dövrdə ölkələrin dayanıqlı inkişafının təmin olunması yalnız paytaxt və iri şəhərlərin deyil, həm də regionların sosial-iqtisadi potensialının gücləndirilməsindən birbaşa asılıdır. Azərbaycanda regionların inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən olunub.*

Səh.11

18_27 IYUI-QARA.qxd 5/14/2026 10:01 PM Page 2



# Bu aktyorlara 25 min manatadək pul veriləcək - Siyahı



***"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti (AzTV) bir sıra aktyorlarla əməkdaşlığa başlayıb.***

"Unikal" iqtisadiyyat.az-a istinadən xəbər verir ki, AzTV bununla bağlı aktyorlarla müqavilə bağlayıb.

Müqavilədə "Biz, səssiz səslər, 44 gün" film və televiziya layihələri üzrə xidmətin satın alınması nəzərdə tutulur.

Müqaviləyə əsasən, aşağıdakı aktyorlar layihəyə ödənişli şəkildə cəlb olunub:

Şıxəliyev Ramin Tofiq oğlu - 22.000 AZN
Novruzov Əliməmməd Kamal oğlu - 14.500 AZN
Məmmədov Ramil Şamil oğlu - 20.000 AZN
Əzizov Əzizağa Ağayar oğlu - 16.000 AZN
Əhmədov İlham Namiq Kamal oğlu - 20.000 AZN
Məhərrəmov Məbud Əliəsgər oğlu - 15.000 AZN
Mehdiyev Oqtay Nüsrət oğlu - 25.000 AZN
Fərzəliyev Natiq Aslan oğlu - 17.500 AZN
Əliyeva Ülviyyə Fərhad qızı - 20.000 AZN
Əhmədov Çingiz Əli Əşrəf oğlu - 15.000 AZN

Bundan əlavə, AzTV "Görüş yeri" verilişi üzrə xidmətin satın alınması ilə bağlı Elnur Kərimovla 3.600 manatlıq, "Türk yurdu" verilişi üzrə xidmətin satın alınması ilə bağlı isə Əkbər Yolçuyevlə 3.948 manatlıq müqavilə bağlayıb.

# "Həkimlər Nazimin ödünü çıxaranda qaraciyərini də zədələyiblər"

***"Sertifikasiya dövlətin nəzarətidir. Bəzi həkimlər şikayətlənir ki, bu, pul mənbəyidir. Amma bu, nazirliyin çalışan həkimin məsuliyyəti öz üzərinə götürməsi deməkdir. Əgər lisenziya verilibsə, deməli, nazirlik həmin həkimin savadını, diplomunu yoxlayıb, lap şirinliyini də alıb, amma "mən sənə görə məsuliyyət daşıyıram" deyir".***

"Unikal" xəbər verir ki, bu sözləri aparıcı İdris Cəfərov "Bakı reallığı" verilişində deyib.

O, "Faytonçu" ləqəbli müğənni Nazim Pişiyarinin əməliyyat zamanı yerli həkimlər tərəfindən öd kisəsinə ciddi zədə dəydiyini açıqlayıb. O, həmçinin Xalq artisti, Xəzər Media Mərkəzinin Baş direktoru Murad Dadaşovun da müalicə üçün xarici ölkələrə üz tutmalı olduğunu vurğulayıb: "Ən bahalı klinikalarımızdan birindən şikayət gəlib ki, bədənə qoyulan titan hissəcik qırılıb. Bəlli olub ki, həmin parça Çin istehsalıdır və hələ də sınaqlardan keçməyib.

"Faytonçu" Nazimin ödünü çıxaran zaman qaraciyərini zədələyiblər. Nazimin bu gün sağ olması İsrail və Türkiyə tibbinin sayəsindədir. Murad Dadaşov xəstələnəndə imkanı olduğuna görə Avropaya gedir. Çünki yaşamaq istəyir.Bu gün pulu olan adam ən azı İrana və ya



Türkiyəyə gedirsə, deməli, səhiyyənin vəziyyəti acınacaqlıdır. Xərçəng xəstəliyinin müalicəsi və ya ürək əməliyyatları üçün Türkiyəyə üz tuturlar. Son vaxtlar bir neçə həkimimiz Almaniyaya gedib. Alman dili öyrənir və orada çalışırlar. Həkimlər burada biznesin qurbanına çevrilmək istəmədiklərinə görə xarici ölkələrə üz tuturlar". (Axşam.az)



# "Ana-atamı yaxşı tanımamışam" - İradə İbrahimova

***Müğənni İradə İbrahimova açıqlaması ilə diqqət çəkib.***

"Xəzər axşamı" proqramına qonaq olan sənətçi aparıcı Mətanət Əliverdiyevanın "Bu xüsusiyyətinə görə kimə oxşamısan - anana, yoxsa atana?" sualını belə cavablandırıb: "Vallah, mən nə anamı, nə də atamı yaxşı tanımıram, tanımamışam. Ona görə də bilmirəm ki, hansına oxşayıram. Amma onu bilirəm ki, özümü yenidən kəşf etmişəm və böyütmüşəm".

Qeyd edək ki, İradənin atası Vəlihət İbrahimov 2010-cu ildə ağır xəstəlik səbəbindən vəfat edib. (Axşam.az)

# Röya qaçhaqaçda!

***Xalq artisti Röya Ayxanın maraqlı görüntüləri sosial şəbəkələrdə gündəm olub.***



Yayılan kadrlarda pop ulduzunun tələsik şəkildə məclisin keçirildiyi məkanın səhnəsinə doğru qaçdığı əks olunub. Röyanın həmin anları izləyicilərin diqqətini çəkib.

Görüntülər qısa zamanda sosial mediada yayılaraq maraq doğurub. İzləyicilər sənətçinin enerjili və səmimi davranışını müzakirə ediblər.

Paylaşıma çoxsaylı şərhlər yazılıb və bir çox istifadəçi pop ulduzunun səhnə sevgisini xüsusi qeyd edib.

# "İbrahim Tatlıses olmağım mümkün deyil"

***Müğənni İzzət Bağırov açıqlaması ilə diqqət çəkib.***

İfaçı çox sevdiyi türk musiqisinin imperatoru İbrahim Tatlısəsdən danışıb: "Biznesim yoxdur. İbrahim Tatlıses olmağım mümkün deyil. İkinci belə bir səs dünyaya bundan sonra gəlməyəcək. İbrahim Tatlıses Şərqin ən böyük ifaçısıdır. Bütün müğənnilər arasında ən çox qazanan sənətçidir. Biz onun kimi oxuya bilmərik. Heç onun ayaqqabılarını da geyinə bilmərik. Onun mahnılarını sevib oxuyuruq. İbrahim Tatlısesla bizim qazancımız buludla torpaq arasındakı fərq kimidir. Bu gün yaşayıramsa, Allaha şükür edirəm. Nəyim varsa, razıyam. Kişinin evində qazan qaynayırsa, o kişidir".

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:01 PM Page 3





# Tahir Budaqov Çində görüş keçirdi

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Partiya Məktəbinin birinci prorektoru, nazir Si Çuntao ilə görüşü keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin bugünədək uğurla yerinə yetirildiyi, qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli işbirliyinin inamla davam etdirildiyi bildirilib.

İstər Azərbaycan, istərsə də Çində gənclərlə siyasi-ideoloji işin xüsusi diqqət mərkəzində saxlanıldığı qeyd edilib. Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında əməkdaşlığın vacibliyi vurğulanıb.

Görüş zamanı Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə ÇKP MK Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib. Memorandumu ÇKP MK Partiya Məktəbinin birinci prorektoru Si Çuntao və DİA-nın rektoru, akademik Urxan Ələkbərov imzalayıblar.

Memorandumda əksini tapmış müddəaların icrasının tərəflər arasında qarşılıqlı maraq doğuran sahələr üzrə təcrübə mübadiləsini təmin etməklə dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində mühüm nailiyyətlərə yol açacağına inam ifadə olunub.

Nümayəndə heyətinin Çin Sosial Elmlər Akademiyasının vitse-prezidenti, nazir Pin Cinhuy ilə görüşündə isə hər iki ölkədə elm və təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğu vurğulanıb, bu istiqamətdə beynəlxalq əməkdaşlığın önəminə diqqət çəkilib. Elmi-tədqiqat institutları arasında əlaqələrin genişləndirilməsi, birgə araşdırmaların aparılması, akademik mübadilə proqramlarının təşviqi, eləcə də sosial elmlər sahəsində qarşılıqlı təcrübə paylaşımının artırılması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Bundan sonra YAP nümayəndə heyətinin Çin Arxeoloji Muzeyinə ekskursiyası təşkil edilib. Sosial Elmlər Akademiyasının vitse-prezidenti Cao Ruy ilə keçirilən görüşdə tarix elminin qarşılaşdığı yeni çağırışlar fonunda rəqəmsallaşma və süni intellekt texnologiyalarının elmi-tədqiqat prosesinə inteqrasiyası, tarixi irsin qorunması, elmi nəşrlərin qarşılıqlı mübadiləsi, ortaq layihələrin hazırlanması, eləcə də alimlər və tədqiqatçılar arasında birbaşa əlaqələrin qurulması istiqamətində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Səfər çərçivəsində nümayəndə heyəti Konfutsi məbədini də ziyarət edib.

# Bu təhsil sektoruna müdir təyin edildi

***Ağdaş Təhsil Sekroruna yeni rəhbər təyin olunub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müvafiq əmri ilə Rəşidli Zeynal Elşad oğlu Ağdaş şəhəri üzrə təhsil sektorunun müdiri vəzifəsinə təyin edilib.

Qeyd edək ki, Zeynal Rəşidli 2024-cü ilin avqust ayından etibarən Mərkəzi Aran Regional Təhsil İdarəsinin inzibati təşkilat sektorunda baş məsləhətçi vəzifəsində fəaliyyət göstərib. Eyni zamanda, hazırda Mingəçevir Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur.

***Ehtiram Muradov***

# Fuad Nəcəflinin başı üstündəki "qara buludlar" sıxlaşır

## Sabiq səlahiyyətli nümayəndə ilə bağlı yeni iddialar ortaya çıxdı - Üfüqdə cinayət işi görünür...

***Naxçıvanda keçmiş səlahiyyətli nümayəndə Fuad Nəcəflinin ünvanına növbəti ittihamlar irəli sürülüb. Belə ki, Azərbaycan Dövlət Ehtiyatları Agentliyinin balansında olan 10 min tondan artıq buğda bazar dəyərindən xeyli aşağı qiymətə formal şəkildə Naxçıvan Taxıl Məhsulları MMC-yə satılıb. İlkin hesablamalara görə, bununla da dövlətə azı 6 milyon 500 min manat ziyan dəyib.***

Musavat.com-un məlumatına görə, mənbələr bildirir ki, buğdanın keyfiyyətsizləşməsi əsas gətirilərək onun cəmi təxminən 2 milyon manata satılmasına şərait yaradılıb. Bu isə əsas sualı ortaya çıxarır - strateji ehtiyat niyə yararsız vəziyyətə düşüb və bundan kimlər faydalanıb?

İddia edilir ki, araşdırmaların əsas istiqamətlərindən biri qərarların verilmə mexanizmidir. İddialara görə, Fuad Nəcəfli buğdanın satışı ilə bağlı Naxçıvan İqtisadiyyat Nazirliyinə təzyiqlər göstərib.

Digər diqqətçəkən məqam kadr təyinatlarıdır. Məlumatlara görə, Nəcəflinin əmisi oğlu Asiman Nəcəfov sözügedən MMC-də icraçı vəzifəyə gətirilib və prosesdə iştirak edib. İddialara görə istintaq həmçinin rüşvət qarşılığında işə düzəltmə və müxtəlif dövlət qurumlarına təsir cəhdləri istiqamətində də araşdırmalar aparır.

2024-cü ildə yaradılan Azərbaycan Dövlət Ehtiyatları Agentliyinin Naxçıvan filialı ilə bağlı da ciddi iddialar var. Rəsmi qurum kimi fəaliyyətə başlasa da, faktiki olaraq idarə edəcək ehtiyatların olmadığı bildirilir. Bu isə məsələnin yalnız iqtisadi deyil, həm də dövlət təhlükəsizliyi baxımından risk daşıdığını göstərir.

O da qeyd edilir ki, artıq bəzi şəxslər istintaqa cəlb edilib və dindirilib. Olar buğda ehtiyatlarının satışı ilə bağlı qərarların Fuad Nəcəflinin göstərişi ilə həyata keçirildiyini bildiriblər. Rəsmi rəqəmlərə əsasən, 2024-cü ildə Naxçıvan Muxtar Respublikasında 49 min ton buğda istehsal olunub. Bunun 15 min tonu toxum və yem məqsədli ayrılıb. Belə bir şəraitdə 10 min ton strateji ehtiyatın yoxa çıxması artıq təkcə maliyyə cinayəti kimi deyil, regionun ərzaq təhlükəsizliyinə ciddi təhdid kimi qiymətləndirilir.

Belə olan təqdirdə Fuad Nəcəfli və onunla əlbir olan şəxslər ətrafında araşdırmaların dərinləşmə ehtimalı böyükdür. Ehtimallar bələdir ki, sözügedən araşdırmalar son illərin ən böyük korrupsiya dosyelərindən birini ortaya çıxarmasına gətirib çıxara bilər.

Xatırladaq ki, 2022-ci ilin dekabrında Naxçıvana səlahiyyətli nümayəndə təyin edilən Nəcəfli 2025-ci ilin dekabrında, yəni cəmi iki il sonra öz postu ilə vidalaşmalı olmuşdu. Onun vəzifəsindən kənarlaşdırılması mediada geniş əks-səda yaratmış və haqqında müxtəlif iddiaların ortaya atılması ilə müşayiət olunmuşdu. Onun vəzifədəki dövrdə mənfi davranışları, tutduğu posta tamamilə uyğunsuz kadr olması, yerli nazirlər, komitə sədrlər və deputatlara qarşı məmur etikasından kənar münasibət sərgiləməsi ilə bərabər qısa vaxtda tamahkar şəxs olaraq tanınmağa başlaması, rüşvət və korrupsiyaya ciddi şəkildə meyllənməsi postundan kənarlaşdırılmasına gətirib çıxaran əsas amillər olaraq göstərilirdi.

Üstəlik, yol verdiyi ciddi qanunsuzluqlar səbəbindən həbs olunma təhlükəsi ilə üzləşdiyinə dair ehtimallar da vardı.

Bu ilin fevralında isə məlumat yayıldı ki, Baş Prokurorluqda "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sabiq sədri Bəhruz Əsgərova cinayət işi açılıb və barəsində həbs-qətimkan tədbiri seçilib. O, Cinayət Məcəlləsinin 179.4-cü (Mənimsəmə, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb. Cinayət işi araşdırılması üçün Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsində icraata verilib.



Məlumatda qeyd olunurdu ki, Naxçıvanda adıçəkilən agentliyə 16 il ərzində rəhbərlik etmiş B. Əsgərov 22 fevral 2025-ci ildə vəzifəsindən azad olunub. Ona qarşı irəli sürülən ittihamlar 2018-2023-cü illəri əhatə edir, bu müddətdə dövlətin xüsusilə külli miqdarda - 5 milyon manatdan çox vəsaitini ələ keçirdiyi vurğulanır.

Həmin dövr isə Fuad Nəcəflinin vəzifədə olduğu dövrə düşürdü.

Çox keçmədən xəbər yayıldı ki, sabiq səlahiyyətli nümayəndə həmin iş üzrə istintaqa cəlb edilib. "Azpolitika"nın yazdığına görə, mənbə iddia edir ki, bundan əlavə Nəcəfli başqa bir cinayət işi üzrə korrupsiya, mənimsəmə və vəzifə səlahiyyətlərindən sui-istifadə cinayətlərində də ifadə verib. O da bildirilirdi ki, iş üzrə epizodlardan biri Muxtar Respublikanın Taxıl Fondundan 6.5 milyon manat dəyərində taxılın qanunsuz olaraq bir şirkətə verilməsi ilə bağlıdır. Həmin əməliyyatdan əldə edilən vəsaitin keçmiş səlahiyyətli nümayəndə tərəfindən mənimsənildiyi iddia olunur.

Taxıl qalmaqalı ilə bağlı yeni iddialar isə vəziyyətin Nəcəfli üçün getdikcə daha da ciddiləşdiyini, onun başı üstündəki "qara buludların" hər gün bir az da sıxlaşdığını söyləməyə əsas verir. Belə gedərsə, onun haqqında aylar öncə həbs proqnozu verənlər haqlı çıxa bilərlər...

***Toğrul Əliyev***

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:01 PM Page 4



# Sahibə Qafarova İkinci Asiya Qadınlar Forumunda çıxış edib

***Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistan Respublikasının Buxara şəhərində keçirilən İkinci Asiya Qadınlar Forumunda iştirak edib.***

"Unikal" xəbər verir ki, bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Forumun açılış mərasimində çıxış edən spiker Sahibə Qafarova Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Asiya Qadınlar Forumunun regional dialoq və əməkdaşlıq üçün daimi platforma kimi təsis edilməsi təşəbbüsünü yüksək qiymətləndirərək, Forumun mövzusunun çox mühüm bir prinsipi əks etdirdiyini söyləyib. Onun sözlərinə görə, qadınlara investisiya qoyuluşu davamlı inkişafa, sosial həmrəyliyə və uzunmüddətli sabitliyə investisiya deməkdir. Spiker deyib ki, qadınların səlahiyyətləndirilməsi artıq yalnız sosial məsələ deyil. Bu, davamlı inkişaf, iqtisadi dayanıqlılıq və sosial sabitlik üçün strateji prioritetə çevrilib.

Milli Məclisin sədri qadınların siyasi, iqtisadi və ictimai həyatda daha geniş iştirakının daha güclü institutların, daha inklüziv inkişafın və daha möhkəm cəmiyyətlərin formalaşmasına gətirib çıxardığını bildirib.

Asiya regionunun bugünkü qlobal sistemdə mühüm rol oynadığını deyən spiker Sahibə Qafarova qeyd edib ki, Asiyanın əhalisi, iqtisadi potensialı və müxtəlifliyi onu qlobal inkişafın və beynəlxalq tərəqqinin əsas hərəkətverici qüvvələrindən birinə çevirir. Bu baxımdan, parlamentin sədri regional və beynəlxalq əməkdaşlığın mühüm əhəmiyyətini qeyd edib. Bildirib ki, təcrübə mübadiləsi, qabaqcıl təcrübələrin paylaşılması və əlaqələndirilmiş siyasətlər ümumi məqsədlərimizə nail olmaq üçün vacibdir.

Çıxışında Azərbaycan qadınlarının ölkə həyatında fəal roluna dair tədbir iştirakçılarına məlumat verən spiker Sahibə Qafarova deyib ki, ölkəmiz qadınların ictimai həyatın bütün sahələrində rolunun təşviqinə yönəlmiş beynəlxalq əməkdaşlığı qətiyyətlə dəstəkləyir. Onun sözlərinə görə, Azərbaycanda qadın hüquqlarının təmin olunması və gender bərabərliyinin təşviqi dövlət siyasətinin mühüm prioritetlərindəndir. Azərbaycanda qadınlar siyasi, iqtisadi, elmi və mədəni həyatda fəal iştirak edirlər, həmçinin dövlət qurumlarında, diplomatiyada, təhsil və dövlət idarəçiliyində yüksək vəzifələr tuturlar. Milli Məclisin sədri xüsusi olaraq vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın geniş ictimai və siyasi fəaliyyəti Azərbaycan qadınlarının cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi mühüm töhfəni əks etdirir. Spiker deyib ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident və tanınmış ictimai-siyasi xadim kimi təhsil, səhiyyə, mədəniyyət və sosial rifah sahələrində mühüm təşəbbüslərin həyata keçirilməsində aparıcı rol oynayır. Onun fəaliyyəti Azərbaycan qadınların ictimai həyatda artan rolunu aydın şəkildə nümayiş etdirir və dövlət idarəçiliyinin ən yüksək səviyyəsində qadın liderliyinin güclü nümunəsi kimi çıxış edir.

Ölkəmizdə gender sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərə də toxunan Azərbaycan parlamentinin rəhbəri qeyd edib ki, Milli Məclis də gender siyasətinin formalaşdırılmasına böyük əhəmiyyət verir. O, qeyd edib ki, 2024-cü ildə keçirilmiş parlament seçkilərindən sonra qadınların Milli Məclisdə təmsilçiliyi daha da artıb və onlar hazırda parlament komitələrində, o cümlədən rəhbər vəzifələrdə fəal rol oynayırlar. Azərbaycan qadın hüquqlarının qanunvericilik səviyyəsində qorunması və bərabər imkanların təmin edilməsi üçün mühüm hüquqi baza yaradıb. Bu istiqamətdə əsas mərhələlərdən biri 2006-cı ildə "Gender bərabərliyi haqqında" Qanunun qəbul edilməsi olub. Sahibə Qafarovanın sözlərinə görə, bu qanun ölkə üzrə qadınlar və kişilər üçün bərabər imkanların hüquqi əsasını yaradıb. Bu gün Azərbaycanda məşğul əhalinin demək olar ki, yarısını qadınlar təşkil edir. Onların biznes, təhsil, elm və rəqəmsal iqtisadiyyatda iştirakı davamlı olaraq artır.



Çıxışda həmçinin məlumat verilib ki, Azərbaycanda qadınlar azad edilmiş ərazilərdə, Qarabağda münaqişədən sonrakı bərpa və yenidənqurma işlərinə də mühüm töhfə verirlər. Milli yenidənqurma prioritetlərinə və "Böyük Qayıdış" proqramına uyğun olaraq, qadınlar bu ərazilərdə sosial, iqtisadi və institusional reinteqrasiya prosesində fəal iştirak edir, infrastrukturun bərpasında, ictimai həyatın yenidən qurulmasında və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışının dəstəklənməsində mühüm rol oynayırlar.

O cümlədən, təhsil, səhiyyə, dövlət idarəçiliyi və yerli iqtisadi inkişaf sahələrində qadınların uzunmüddətli bərpanın və sosial həmrəyliyin gücləndirilməsinə töhfə verdiyini bildirən spiker Sahibə Qafarova, ümumilikdə qadınların yenidənqurma prosesində fəal iştirakının Azərbaycanın münaqişədən sonrakı inkişaf yanaşmasını əks etdirdiyini diqqətə çatdırıb. O, həmçinin deyib ki, insan kapitalı, o cümlədən qadınların rolu davamlı bərpa və uzunmüddətli inkişaf üçün əsas amillərdən biri hesab olunur.

Çıxışının sonunda Milli Məclisin sədri bir daha qeyd edib ki, qadınlara investisiya qoyuluşu cəmiyyətlərimizdə davamlı inkişafın və uzunmüddətli sabitliyin əsasını təşkil edir. İrəlilədikcə, qadınların daha inklüziv, dinc və davamlı gələcəyin formalaşdırılmasında bərabər iştirakçı və lider kimi öz potensiallarını tam şəkildə reallaşdırmalarını təmin etmək üçün daha güclü beynəlxalq əməkdaşlıq və davamlı siyasi iradə mühüm əhəmiyyət daşıyacaq.

Açılış mərasimində, həmçinin Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Türkmənistan Məclisinin sədri Dünyagözəl Qulmanova, BMT-nin Əhali Fondunun İcraçı direktoru Dien Keyta, BMT-nin Cenevrə Ofisinin rəhbəri Tatyana Valovaya və digərləri çıxışlarında tədbirin əhəmiyyətini və müzakirə olunan mövzuların aktuallığını qeyd edərək forumun işinə uğurlar arzulayıblar.



# "Köçəryan həbsdə olmalıdır" - Paşinyan

***"1 mart işi açılıb, bütün detalları ilə açılıb. Əsa məsələ isə odur ki, hüquq-mühafizə sistemimiz dəstənin başçısı Robert Köçəryanı hüquqi məsuliyyətə cəlb etməlidir. Qısası, Robert Köçəryan (hazırda ölkənin keçmiş prezidentinin rəhbərlik etdiyi "Ermənistan" blokunun deputatlığa namizədlər siyahısına rəhbərlik edir - red.) həbsdə olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu seçkiqabağı təşviqat zamanı Ermənistanın baş naziri Nikol Paşinyan bildirib.

Onun sözlərinə görə, bu baş verməyənə qədər hakimiyyət Ermənistanda ədalətli məhkəmə sisteminin mövcud olduğuna heç kimi inandıra bilməyəcək.

"Ünvanıma səsləndirilən və cavab verməkdə ən çox çətinlik çəkdiyim ittiham budur: insanlar soruşurlar ki, nə üçün Robert Köçəryan azadlıqdadır", - deyə Paşinyan vurğulayıb.

Qeyd edək ki, "1 mart işi" Ermənistanda 2008-ci il prezident seçkilərindən sonra baş verən qanlı hadisələrlə bağlı cinayət işidir.

***Gülayə Mecid***

# Səfir: Fransa WUF13-də böyük nümayəndə heyəti ilə iştirak edəcək

***WUF13-lə əlaqədar Fransanın nümayəndə heyəti bazar günündən etibarən Bakıda olacaq.***

Bunu APA-ya açıqlamasında Fransanın Azərbaycandakı səfiri Sofi Laqut deyib.

Səfir bildirib ki, səfər çərçivəsində Fransa Xarici İşlər Nazirliyi, Fransa Milli Assambleyası və Senatının nümayəndələri, həmçinin bir sıra akademiklər və Fransanın yerli icra hakimiyyəti orqanlarının təmsilçiləri Bakıda olacaqlar.

Diplomat onu da qeyd edib ki, Fransanın müxtəlif qurumlarının, o cümlədən Fransa Ətraf Mühit Nazirliyi, Fransa İnkişaf Agentliyi, Fransa Ekspertiza Agentliyi, eləcə də yerli özünüidarəetmə orqanları və vətəndaş cəmiyyəti nümayəndələrinin də tədbirdə iştirakı nəzərdə tutulur.

# Bu tibb işçilərinin əməkhaqlarına əlavənin müddəti uzadıldı

***Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına əlavənin müddəti uzadılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, bu müddət 2026-cı il iyulun 1 -dək uzadılıb.

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:02 PM Page 5



# Azərbaycanda yeni agentlik yaradıldı - FƏRMAN



***Prezident İlham Əliyev Tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, Fərmana əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Tullantıların İdarə Edilməsi üzrə Dövlət Agentliyi yaradılıb.

Fərmanla müəyyən edilib ki, Agentlik tullantıların idarə edilməsi (tullantıların əmələ gəlməsi, yığılması, çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması) və tullantı haqlarının toplanması sahəsində dövlət nəzarətini, tənzimləməni və əlaqələndirməni həyata keçirən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olan qurumdur.

# Prezidentdən Baxış Babayevlə bağlı sərəncam

***Baxış Abutalıb oğlu Babayev 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, Baxış Babayev Azərbaycanın elektroenergetika sahəsinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

# Azərbaycanda vahid büdcə təsnifatı yenilənib



***Nazirlər Kabineti "Vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 11 oktyabr 2018-ci il tarixli qərarında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondu büdcə xərclərinin inzibati təsnifatına daxil edilib.

# Yeni Baş Kollektiv Saziş bağlanıldı

***Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) arasında 2026-2028-ci illər üçün Baş Kollektiv Saziş bağlanılıb.***

"Unikal" xəbər verir ki, sənədi Baş nazir Əli Əsədov, AHİK-in sədri Sahib Məmmədov və ASK-nın prezidenti Ələkbər Məmmədov imzalayıb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Şuşadakı üç qeyri-yaşayış binası ilə bağlı qərar verildi

***Nazirlər Kabineti Şuşadakı üç qeyri-yaşayış binası ilə bağlı qərar verib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, "Sökülməsi mümkün olan obyektlərin Siyahısı"na Şuşa şəhəri, Aslan Qaraşarov küçəsində yerləşən üç qeyri-yaşayış binası əlavə edilib.

# "Azərbaycan onların qarşılaşdığı problemləri tam şəkildə anlayır" - Hikmət Hacıyev

***Azərbaycan Qlobal Cənub ölkələrinin qarşılaşdığı bütün çətinlikləri və problemləri tam şəkildə anlayır.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Qlobal Cənub QHT Platformasının (Global South NGO Platform - GSNP) I Baş Assambleyasında çıxışında deyib.

O bildirib ki, Azərbaycan özünü Qlobal Cənubun bir hissəsi hesab edir: "Biz coğrafi, tarixi, mədəni baxımdan və həmçinin taleyimiz etibarilə Qlobal Cənubun bir hissəsiyik. Çünki Azərbaycan da müstəqilliyi dövründə və ümumilikdə bütün tarixi boyunca bu çətinliklərdən keçib.

Xüsusilə müstəmləkəçilik və neomüstəmləkəçilik məsələlərini vurğulamaq istəyirəm.



Qlobal Cənub ölkələri tarix boyu çox əziyyət çəkiblər. Bu, bəşəriyyətin üzərində qalan bir yaradır. Təəssüf ki, bu praktikanın bu gün də qlobal səviyyədə yeni forma və təzahürlərlə davam etdiyini görürük. Azərbaycan 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə neomüstəmləkəçiliyə qarşı mübarizəni əsas prioritetlərdən biri kimi müəyyən etmişdi. Həmçinin təəssüf hissi ilə qeyd edirik ki, BMT-nin Dekolonizasiya Komitəsi bu günədək öz mandatını tam şəkildə yerinə yetirə bilmir. Çünki bəzi ölkələr dekolonizasiya məsələsinə müqavimət göstərirlər."

H.Hacıyev onu da qeyd edib ki bBeynəlxalq qurumların, xüsusən də BMT Təhlükəsizlik Şurasının mövcud strukturu müasir dünyanın reallıqlarını əks etdirmir. Onun sözlərinə görə, bu qurumda Qlobal Cənubun səsi kifayət qədər eşidilmir və ədalətli coğrafi təmsilçilik təmin olunmayıb: "Hesab edirik ki, BMT Təhlükəsizlik Şurasının islahat prosesi zamanı xüsusilə Qlobal Cənubun səsi və onun ədalətli təmsilçiliyi təmin edilməlidir. Azərbaycan çoxtərəfliliyin əsas dəstəkçisidir, lakin təəssüf ki, biz çoxtərəfliliyin və çoxtərəfli institutların iflic vəziyyətini görürük. Qlobal Cənub ölkələri isə bu institutların gücləndirilməsinə effektiv şəkildə töhfə verməyə davam edəcək".

# Şuşada IX "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılışı oldu

***Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 14-də Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı başlayıb.***

"Unikal" xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, tanınmış mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Xarıbülbül" bu il də Şuşanı musiqi və rəngarəng mədəniyyətlərin ünvanına çevirib. Festivalda təkcə yerli incəsənət nümayəndələri deyil, həm də bir sıra xarici ölkələrdən gələn musiqi kollektivləri və solo ifaçılar bir araya gəlib. Belə ki, ABŞ, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Türkiyə, Yaponiyadan incəsənət xadimləri "Xarıbülbül"ə dəvət olunub.

Bu beynəlxalq tədbirin əsas məqsədi mədəniyyətlərarası əlaqələri gücləndirmək, sənətkarlar arasında yaradıcılıq mübadiləsinə şərait yaratmaq və gənc musiqiçilərin inkişafına dəstək verməkdir.

"Xarıbülbül"ün açılış konsertində Xalq artistləri Polad Bülbüloğlu, Tünzalə Ağayeva, Yusif Eyvazov, Əməkdar artistlər Azər Zadə, Elnarə Məmmədova, Elvin Hoca Qəniyev, Təyyar Bayramov, Əməkdar mədəniyyət işçiləri aşıq Samirə və aşıq Əli, beynəlxalq müsabiqələr laureatı Camal Əliyev, ifaçılar Habil Məmmədov və tələbələri, Sankt-Pe-




terburq Dövlət Akademik Mariya Teatrının solisti Həmid Abdulov, eləcə də İsmayıl Zeynalov, Kiyoşi Ohira (Yaponiya), Düsseldorfda fəaliyyət göstərən "Reyndə alman operası" teatrının solisti Mara Hüseynova, həmçinin Müşfiq Quliyev, Riad Məmmədov, Uğur İşılak (Türkiyə), Azərbaycan Dövlət Rəqs Ansamblı, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, Bakı Xoreoqrafiya Akademiyasının tələbələri, Qazaxıstanın "Turan" Etno-Folk Ansamblı, Özbəkistanın "Şodlık" Rəqs Ansamblı, Türkmənistanın "Qalkınış" Rəqs Ansamblı çıxış ediblər.

Festivalın açılış konserti "Qarabağ yallısı" ilə başa çatıb.

Yaponiyadan gələn tarzən Ohira Kiyoşi "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalında iştirak etməyin qürurverici olduğunu bildirib. O qeyd edib ki, bu cür tədbirlərin keçirilməsi həm dostluq əlaqələrinin möhkəmlənməsinə, həm də sənətin inkişafına töhfə verir, eyni zamanda Şuşanın gözəlliyini və zəngin mədəni irsini dünyaya tanıdır. O vurğulayıb ki, bu məkanın ab-havası, təbiəti və burada hökm sürən musiqi ruhu onu dərindən təsirləndirib.

Virtuoz skripka ifaçısı, Əməkdar artist Elvin Hoca Qəniyev bu gün babasının doğma yurduna gələrək burada çıxış etməyin onun üçün böyük əhəmiyyət daşıdığını deyib: "Türkiyədə doğulub böyüsəm də, babam əslən şuşalıdır. Buraya ilk dəfədir gəlirəm və bu səfər mənim üçün çox xüsusi bir mənəvi dəyərə malikdir."

Sənətçi qeyd edib ki, bu torpaqda ifa etmək həm məsuliyyət hissini artırır, həm də yaradıcılığına xüsusi bir ilham verir. O əlavə edib ki, festival çərçivəsində müxtəlif ölkələrdən olan musiqiçilərlə bir araya gəlmək və səhnəni bölüşmək onun üçün maraqlı və dəyərli təcrübədir.

Festivalda tələbələri ilə iştirak edən xanəndə Habil Məmmədov bildirib ki, bu mötəbər tədbir gənclərin səhnə təcrübəsi qazanması, peşəkar sənətçilərlə birgə çıxış etməsi və öz yaradıcılıq imkanlarını inkişaf etdirməsi baxımından vacibdir.

Xanəndənin sözlərinə görə, tələbələrin müxtəlif ölkələrdən gələn musiqiçilərlə eyni səhnəni bölüşməsi onların dünyagörüşünün genişlənməsinə və sənətə daha universal baxış formalaşdırmasına da təsir edir.

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:02 PM Page 6



# "Bakıda keçiriləcək WUF13 COP29 iqlim gündəliyinin davamı olacaq"

Zaur Əhmədov: "İqlim dəyişiklikləri, münaqişələr və iqtisadi qeyri-bərabərliyin şəhərlərə miqrasiyanı gücləndirdiyi və infrastruktura əlavə təzyiq yaratdığı bir vaxtda dünya urbanizasiyanın yeni mərhələsinə qədəm qoyur"

***Şəhərlərin dayanıqlı inkişafı olmadan qlobal iqlim hədəflərinə çatmaq qeyri-mümkündür, bu baxımdan Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) COP29-da müzakirə edilən iqlim gündəliyinin davamı olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədovun "Global Bar Magazine" üçün məqaləsində bildirilib. Onun sözlərinə görə, Azərbaycanın 2024-cü ildə ev sahibliyi etdiyi COP29-dan sonra ölkə əsas diqqətin iqlim tədbirləri, enerji keçidi və beynəlxalq əməkdaşlıq məsələlərinə yönəldiyi qlobal iqlim müzakirələrinin mərkəzinə çevrilib. Lakin iqlim gündəliyini urbanizasiya və şəhər mühitinin inkişafı məsələlərindən ayrı nəzərdən keçirmək olmaz. Məhz buna görə də WUF13-ün Bakıda keçirilməsi iqlim sammiti çərçivəsində başlanmış müzakirələrin məntiqi davamına çevrilir.



Z.Əhmədov qeyd edib ki, bu gün dünya genişmiqyaslı mənzil böhranı ilə üz-üzədir: təxminən 3 milyard insan qeyri-standart şəraitdə yaşayır. Proqnozlara görə, 2050-ci ilə qədər planet əhalisinin təxminən 70 %-i şəhərlərdə yaşayacaq. Belə şəraitdə mənzil, infrastruktur, sosial inteqrasiya və dayanıqlı inkişaf məsələləri təkcə inkişaf etməkdə olan ölkələr üçün deyil, həm də Avropa, o cümlədən İsveç üçün əsas məsələlərə çevrilir.

"İqlim hədəflərini - Paris sazişindən tutmuş milli strategiyalara qədər - dayanıqlı şəhərlər olmadan həyata keçirmək qeyri-mümkündür", - diplomat deyib. Onun sözlərinə görə, enerji səmərəli binalar, dayanıqlı mobillik, sirkulyar materiallardan istifadə və iqlim dəyişikliklərinə uyğunlaşma məhz düzgün şəhər planlaşdırmasından başlayır. Buna görə də WUF13 iqlim, mənzil, maliyyələşdirmə və sosial dayanıqlılıq məsələlərinin vahid kontekstdə nəzərdən keçiriləcəyi bir platforma olacaq.

Səfir xüsusi olaraq İsveçin şəhərlərin dayanıqlı inkişafı sahəsindəki təcrübəsinə toxunub. O qeyd edib ki, "Viable Cities", "Vinnova" kimi təşəbbüslər, eləcə də Kral Texnologiya İnstitutu və Lund Universitetinin iştirak etdiyi layihələr artıq iqlim baxımından neytral şəhərlərin qlobal modellərinin bir hissəsinə çevrilib. Onun sözlərinə görə, Stokholm, Göteborq və Malmö təcrübəsi şəhər mühitinin gələcəyi ilə bağlı beynəlxalq müzakirələrdə fəal şəkildə istifadə olunur.

O, həmçinin sənaye və şəhər inkişafı sahəsində İsveç və Bakı arasındakı dərin tarixi əlaqələri xatırladıb. Onun sözlərinə görə, hələ XIX əsrdə Nobel qardaşları - Robert, Lüdviq və Alfred - Bakının müasir sənaye mərkəzinə çevrilməsində mühüm rol oynayıblar.

Diplomat qeyd edib ki, 1878-ci ildə məhz Bakıda ilk müasir neft tankeri olan "Zərdüşt" (Zoroaster) istismara verilib, həmçinin enerji resurslarının daşınması sistemini əhəmiyyətli dərəcədə dəyişən ilkin boru kəmərləri inşa edilib. Bundan əlavə, "Ericsson" şirkəti hələ 1881-ci ildə regionda ilk telefon xətlərindən birini yaradıb.

Səfir vurğulayıb ki, bu gün tarixi əlaqələr rəqəmsallaşma və "ağıllı şəhərlər" sahəsində Azərbaycanla İsveç arasındakı əməkdaşlıq vasitəsilə öz müasir davamını tapır.

Z.Əhmədovun sözlərinə görə, iqlim dəyişiklikləri, münaqişələr və iqtisadi qeyri-bərabərliyin şəhərlərə miqrasiyanı gücləndirdiyi və infrastruktura əlavə təzyiq yaratdığı bir vaxtda dünya urbanizasiyanın yeni mərhələsinə qədəm qoyur. Ekstremal hava hadisələri yaşayış yerlərini və kommunikasiyaları dağıdır, yaşayış xərclərinin artması və qeyri-kafi planlaşdırma isə mənzil böhranını daha da ağırlaşdırır. Bununla yanaşı, tədqiqatlar göstərir ki, keyfiyyətli mənzilə əlçatanlıq cəmiyyətin sağlamlığına, təhsilinə və iqtisadi inkişafına birbaşa təsir göstərir.

O qeyd edib ki, WUF13 təkcə mənzil tikintisinin yox, həm də maliyyələşdirmə mexanizmlərinin, idarəetmənin, innovasiyaların və sosial inteqrasiyanın müzakirəsi üçün beynəlxalq platforma olacaq. Forumun əsas məsələləri sırasında əlçatan mənzillərə investisiya qoyuluşu, qeyri-rəsmi yaşayış məskənlərinin inteqrasiyası və şəhərlərin iqlim dəyişikliklərinə qarşı dayanıqlılığının artırılması yer alır.

"WUF13 beynəlxalq forumdan daha çoxudur. Bu, tarixi təcrübənin, müasir innovasiyaların və gələcəyə baxışın qovuşduğu qlobal transformasiyanın növbəti mərhələsini müəyyən etmək imkanıdır", - Z.Əhmədov deyib.(Report)

# ETX növbəti dəfə vətəndaşlara xəbərdarlıq edir

***Son dövrlər sosial şəbəkələrdə "cərimələrin ödənilməsi", "cəriməyə endirim", "borcun bağlanılması" və oxşar məzmunlarla reklam edilən bəzi internet səhifələrinin fişinq məqsədilə istifadəsi müşahidə olunur.***

Aparılan monitorinqlər zamanı ayrı-ayrı saxta internet resurslarının rəsmi dövlət platformalarını təqlid edərək istifadəçilərin bank kartı məlumatlarını və digər fərdi məlumatlarını ələ keçirməyə cəhd edildiyi müəyyənləşib.

"Unikal" xəbər verir ki, Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara sosial şəbəkələrdə yayılan şübhəli reklamlara etibar etməməyi, naməlum keçidlər vasitəsilə ödəniş əməliyyatları aparmamağı, kart məlumatlarını, CVV/CVC və təsdiq kodlarını üçüncü şəxslərlə paylaşmamağı, ödənişləri yalnız rəsmi və dövlət informasiya sistemləri üzərindən həyata keçirməyi,




daxil olduqları internet səhifələrinin domen ünvanlarını diqqətlə yoxlamağı tövsiyə edir.

Vətəndaşlara kiberdələduzluq halları ilə qarşılaşdıqda aidiyyəti qurumlara məlumat vermək məsləhət görülür.

# Auditorlar Palatasında bir neçə şöbə ləğv edildi

***Auditorlar Palatasında struktur dəyişikliyi aparılıb və yeni idarə yaradılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Palatanın sədri Vahid Novruzov əmr imzalayıb.

Əmrə əsasən, Palatanın strukturunda birbaşa sədrə tabe olan "Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsi" yaradılıb.

Yeni idarənin auditor xidməti göstərən subyektlər üzrə komplayns, hüquqi ekspertiza, xüsusi audit, forenzik təhlil, etik nəzarət, risk monitorinqi, peşə nəzarəti və daxili nəzarət üzrə yoxlama funksiyalarını həyata keçirəcəyi bildirilir.

İdarənin fəaliyyətində xüsusi auditlər, terrorçuluğun maliyyələşdirilməsinə və çirkli pulların yuyulmasına qarşı mübarizə, hədəfli maliyyə sanksiyalarına uyğunluq, peşə etikası və hüquqi ekspertiza vahid funksional sistem kimi tətbiq olunacaq.

Yeni idarənin tərkibində aşağıdakı şöbələr fəaliyyət göstərəcək:

- Xüsusi Auditlər və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsi;
- Daxili Nəzarət və Komplayns şöbəsi;
- Peşə Etikasının Hüquqi Təminatı və Monitorinqi şöbəsi;
- Hüquqi Ekspertiza, Forenzik Təhlil və Metodoloji Təminat şöbəsi.

Eyni zamanda Palatanın strukturunda mövcud olan "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə İdarəsi", eləcə də bir sıra şöbələr ləğv edilib və onların funksiyaları yeni yaradılmış idarəyə inteqrasiya olunub.

Əmrdə qeyd olunub ki, yeni strukturun yaradılmasında məqsəd audit sistemində şəffaflığın, peşə məsuliyyətinin, etik davranışın, komplayns mədəniyyətinin və riskəsaslı nəzarətin gücləndirilməsidir.

# Azərbaycanda iki yeni institut yaradıldı




***Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutu və Tətbiqi Elmlər İnstitutu yaradılıb.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Elm və Təhsil Nazirliyinin tabeliyində müasir infrastruktura və beynəlxalq standartlara uyğun elmi tədqiqat və təcrübi istehsalat bazasına malik publik hüquqi şəxs statuslu aşağıdakı elmi müəssisələr yaradılıb:

Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutu;

Tətbiqi Elmlər İnstitutu.

Yaradılan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

- Nazirlər Kabinetinə publik hüquqi şəxslərin yenidən təşkili və ləğv edilməsi;
- Elm və Təhsil Nazirliyinə yuxarıda qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" qanun ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

Elm və Təhsil Nazirliyi:

- Yaradılan publik hüquqi şəxslərin nizamnamələrini iki ay müddətində təsdiq etsin;
- publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;
- bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:02 PM Page 7



# Taksilər avtobus zolaqlarından istifadə edə bilər? - Açıqlama



***Bakıda taksilərin avtobus zolaqlarından istifadəsi məsələsi gündəmdə deyil.***

"Unikal" xəbər verir ki, bu barədə report-a müsahibəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayev bildirib.

Onun sözlərinə görə, taksilərin avtobus zolaqlarından istifadəsi bir çox ölkədə müzakirə olunan mövzudur: "Açıq deyim ki, hazırda biz bu məsələni gündəmdə saxlamırıq. Bunun əsas səbəbi avtobusların hərəkət intervalının qorunmasının prioritet olmasıdır. Əgər avtobusların qrafiki təmin edilməsə, digər tədbirlərin heç bir mənası qalmır. Məqsəd odur ki, ictimai nəqliyyatdan istifadə edən sərnişin avtobusa rahat və vaxtında minə bilsin. Əgər avtobuslar da digər avtomobillərlə birlikdə tıxacda qalacaqsa, insanlar ictimai nəqliyyata üstünlük verməyəcək, şəxsi avtomobilə və ya taksiyə yönələcəklər".

A.Rzayev vurğulayıb ki, vaxtilə taksilərin avtobus zolaqlarına daxil olmasına icazə verən bəzi ölkələrdə hazırda əks proses gedir: "Paris, Sinqapur və Nyu-Yorkda avtobus zolaqlarının daha sərt şəkildə təcrid olunması istiqamətində addımlar atılır. Londonda da avtobus zolaqlarından istifadəyə nəzarətin sərtləşdirilməsi prosesi başlayıb. Çünki həmin şəhərlərdə gördülər ki, avtobus intervalları pozulmağa başlayır. Bizim reallığa uyğun başqa bir nümunəni də qeyd etmək istərdim. Təsəvvür edin ki, hansısa şəxs regionlardan birində taksi fəaliyyəti üçün buraxılış kartı alır və daha sonra Bakıda avtobus zolağından istifadə edir, amma faktiki olaraq sərnişin daşımır. Sistem baxımından bu avtomobil taksi kimi görünür və avtobus zolağına daxil olur. Belə halların baş vermə ehtimalını da nəzərə almalıyıq. Ona görə də hesab edirik ki, bu məsələ ilə bağlı qərar vermək üçün əvvəlcə ümumi nəqliyyat sistemində müəyyən dəyişikliklər və əlavə tənzimləmələr həyata keçirilməlidir".

## Azərbaycanda 3 elektron pul təşkilatının lisenziyaları ləğv edildi

***Azərbaycan Mərkəzi Bankı (AMB) 3 elektron pul təşkilatının lisenziyalarını ləğv edib.***

"Unikal" xəbər verir ki, qurumun İdarə Heyətinin 13 may 2026-cı il tarixli protokolu ilə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunun 54.1.1-ci maddəsinə əsasən "Azvvallet" MMC-yə verilmiş 9 aprel 2025-ci il tarixli, "Greentek Group" MMC-yə verilmiş 18 sentyabr 2024-cü il tarixli və "Guavapay" MMC-yə verilmiş 9 aprel 2025-ci il tarixli lisenziyalar ləğv olunub.

Bununla da, ölkədə lisenziyalı elektron pul təşkilatlarının sayı 14-ə düşüb.

## "Xalçalarda memarlıq" adlı sərgi keçiriləcək

***Mayın 17-də Azərbaycan Milli Xalça Muzeyində Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) həsr olunmuş "Xalçalarda memarlıq" adlı sərgi açılacaq.***

Sərgidə muzey kolleksiyasına aid XIX-XXI əsrlərdə toxunmuş xalq yaradıcılığı nümunələri və müəllif xalçaları nümayiş olunacaq. Ekspozisiya Azərbaycan xalça sənətində memarlıq motivlərinin bədii ifadəsini və tarixi abidələrin ornamental yaddaşda yaşadılmasını əks etdirir.

Sərgidə Xalq rəssamları Lətif Kərimovun, Eldar Mikayılzadənin, Əməkdar rəssam Taryer Başirovun, gənc xalçaçı-rəssam Afaq Abdullayevanın və başqalarının əsərləri yer alacaq. Xalq rəssamı Eldar Mikayılzadənin "Məlhəm" xalçası və rəssam Cəmilə Həşimovanın "Yol" konseptual layihəsi isə ictimaiyyətə ilk dəfə təqdim olunacaq.

"Xalçalarda memarlıq" sərgisi Azərbaycan xalça sənətində memarlıq irsinin estetik və fəlsəfi təcəssümünü nümayiş etdirir, ənənə ilə müasir baxış arasında yaradıcı əlaqə yaradır.

# "Ola bilər ki, "hantavirus"un hansısa növü daha tez yayılan infeksiya yaratsın"

## Adil Qeybulla: "Mümkün qədər bu siçanlardan uzaq dayanmaq, onların olduğu yeri sterlizə etmək, təmizləmək və bu zaman əlcək geyinmək, maskadan istifadə etmək lazımdır"

***Tibb elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. O, son günlər adı tez-tez çəkilən hantavirus xəstəliyindən, onun yaranma səbəbindən, müalicəsinin necə aparıldığından, xəstəliyin qarşısının alınması üçün hansı addımların atılmalı olduğundan və digər məsələlərdən danışıb.***

***-Adil müəllim, son günlər dünyada hantavirusla bağlı yayılan xəbərlər narahatlıqları artırıb. İlk öncə ondan başlayaq ki, bu xəstəliyin yaranmasının səbəbi nədir və əvvəlki dövrdə bu xəstəliyə rast gəlinibmi?***



-Hantavirus ilk dəfə 1993-cü ildə müəyyən edilib və əsasən gəmiricilər arasında yayılır. Virus daha çox marala bənzər siçanlarda aşkarlanır və adi ev siçanlarında demək olar ki, rast gəlinmir. Ümumiyyətlə, hantaviruslar zoonotik viruslar olub, əsasən gəmiricilərdə müxtəlif növləri var. Təbiətdə təbii rezervuar kimi daha çox maral siçanlarının orqanizmində yaşayırlar. Maral siçanlarının insanda ciddi xəstəlik törədən növü var. Şimali və Cənubi Amerikada xəstəliyin ağciyər ağırlaşmaları yaradan ştamı mövcuddur. Avropaya transfer edən gəmiricilərdə daha çox qızdırma və böyrək çatışmazlığı törədən ştam var. Bəzi yerlərdə respirator xəstəliklər törədir. Amma bütün gəmiricilər rezervuardır. Hazırda Azərbaycanın müxtəlif yerlərində olan siçanlar onların təbii rezervuarı deyil. Burada insan üçün təhlükəli ştam yoxdur. Amma o demək deyil ki, bu xəstəlik olmaya bilməz. Biz qloballaşan dünyada yaşayırıq. Artıq müxtəlif ölkələrdən, o cümlədən Amerika qitəsindən ölkəmizə mallar gəlir. Bu baxımdan həmin siçanların transferi mümkündür.

***-Hantavirusun əlamətləri nədir və insanlar bundan qorunmaq üçün hansı qabaqlayıcı addımlar atmalıdır?***

-Hazırda hantavirusun "Andes" ştamının insanlar arasında yaxın kontaktla yayıldığı müəyyən edilib. Ona görə xəstəliklə bağlı Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) həyəcan təbili çalıb. ÜST-ün bu prosesi nəzarət altına alması tam məntiqlidir. Nəzərə alsaq ki, genomunda RNT daşıyıcı olan virusdur və mutasiyaya uğrayır. Ona görə bu virusu diqqət mərkəzində saxlamaq lazımdır. Ola bilər ki, gələcəkdə bunun hansısa növü daha tez yayılan infeksiya yaratsın. Məsələn, hava-damcı yolu və ya birbaşa kontakla yayılan infeksiya olsun. Belə hallarda ciddi pandemiya, epidemiya yarada bilər. Hazırda bu təhlükə yoxdur. Bunlara baxmyaraq, infeksiyanın vaxtında lokallaşdırılması mühüm məsələdir. Çünki virus insan orqanizmində nə qədər çox qalarsa, formasını dəyişir, yeni xassə əldə edir, mutasiyaya uğrayır və yoluxma riski artır.

***-İnsanları düşündürən məsələlərdən biri də budur ki, hantavirus yeni qlobal təhlükəyə çevrilə və COVID-19 kimi pandemiya yarada bilərmi? Həmçinin, Azərbaycanda hantavirus təhlükəsi varmı?***

-Hazırda virusun yoluxma indeksi pandemiya yaratmaq üçün yetərli deyil. Çünki onun yoluxduruculuq göstəricisi və yayılma indeksi kifayət qədər aşağıdır. Bununla belə, xəstəlik ciddi təhlükə hesab olunur. Xüsusilə də virusun insan orqanizmində yaratdığı ağır fəsadlar və yüksək ölüm göstəriciləri səbəbindən məsələyə ciddi yanaşmaq lazımdır. Gələcəkdə virusun hansı davranış sərgiləyəcəyini proqnozlaşdırmaq çətindir. Ona görə ki, hansı virusların genomunda RNT varsa, onlar daim mutasiyaya uğrayır.

Nə qədər ki, zoonotik infeksiyalar insana transfer edib və insandan-insana yayılmağa başlayıb, artıq ciddi və epidemioloji baxımdan nəzarət altına alınmalı olan infeksiyalar sırasına daxil edilib.

***-Bu xəstəliyin qarşısının alınması üçün ölkəmizdə hansı qabaqlayıcı tədbirlər görülməlidir?***

-Proflaktika tədbirlərinə ciddi fikir verilməlidir. Çünki virusla mübarizə üçün konkret klinik protokol yoxdur. Amma preventiv tədbirlər olmalıdır. Mümkün qədər bu siçanlardan uzaq dayanmaq, onların olduğu yeri sterlizə etmək, təmizləmək və bu zaman əlcək geyinmək, maskadan istifadə etmək lazımdır. Sanitar idarələr haradasa təbii rezervuar tapılsa, dərhal işə keçməli və həmin zonada dezinfeksiya işləri görülməli, gəmiricilərlə mübarizə aparılmalıdır. Siçanların dişləməsi, ağız suyunun müxtəlif yerlərə düşməsi yoluxma üçün şərait yaradır. Digər tərəfdən, mütəxəssislər virusların zamanla davranış dəyişdirə bilməsini də nəzərə almağın vacib olduğunu bildirirlər. Bu gün aşağı yoluxduruculuq göstərən virus gələcəkdə mutasiya nəticəsində fərqli xüsusiyyətlər qazana bilər.

***Anar Kəlbiyev***

# Özəl klinikaların özlərinin müalicəyə ehtiyacı var

## Bu tibb müəssisələrində qalmaqallar bitmək bilmir - Hər gün yeni biabırçılıq, hər gün yeni özbaşınalıq...

***Bu günlərdə məlum oldu ki, cari ilin təkcə aprel ayında 14 özəl tibb müəssisəsi barədə inzibati tənbeh tədbiri görülərək, inzibati xətalar məcəlləsinin müvafiq maddələri ilə protokollar tərtib edilib.***

Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən verilən məlumatda məlum olurdu ki, həmin müddət ərzində 1 ümumi cərrah da sertifikatsız şəkildə plastik cərrah kimi fəaliyyət göstərdiyi üçün barəsində müvafiq protokol tərtib olunub.

Təəccübləndikmi?

Qətiyyən!

Məsələ burasındadır ki, artıq Azərbaycandakı özəl klinikalarda baş verən qalmaqallara, bir çox hallarda hətta ağlasığmaz təsir bağışlayan nöqsanlar barədə xəbərlərə artıq bir növ adətkar da olmuşuq.

Elə yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Bakıda fəaliyyət göstərən ”General Hospital” vətəndaşa saxta sağlamlıq arayışı verib. Üstəlik, həmin hal sözügedən klinika üçün ilk deyilmiş! Bu da azmış kimi, ”Yaşam Medical” klinikası isə vətəndaşa düzgün olmayan analiz cavabı göndərib.



Belə ki, ”Unikal”a müraciət edən Ruslan Hüseynovun sözlərinə görə, paytaxtda yerləşən restoranlardan birində çalışan zaman ”Yaşam Medical” klinikasının əməkdaşları ondan qan analizi götürüblər: ”20 manat da ödəniş etdim. Bir neçə gün sonra, 14 mart 2026-cı il tarixində analizin cavabı gəldi. Cavabda heç bir problemin olmadığı bildirildi. Bir müddət sonra isə başqa bir restoranda işləməyə başladım. Bu səbəbdən sağlamlıq kağızı almalı idim. Beləliklə, digər bir özəl klinikada qan analizi verdim. Məndə hepatit aşkarlandı. Qeyd edim ki, bu analiz cavabı 4 may 2026-cı il tarixində qeydə alınıb. Məlum oldu ki, yoluxma uzun müddət əvvəl baş verib.

Şikayətim ”Yaşam Medical” klinikasındandır. Nəyə görə vətəndaşların verdikləri analizlər düzgün yoxlanılmır? Düzgün yoxlasaydılar, hepatitə yoluxmağım barədə daha tez məlumatlı olardım.

Onu da qeyd edim ki, məndə bu xəstəlik aşkarlanandan sonra yenidən yoxlanış etmək istədim. Bu dəfə ”General Hospital”a müraciət etdim, lakin məlum oldu ki, həmin klinika heç bir yoxlanış etmədən saxta sağlamlıq arayışı verir. Mənə kart nömrəsi göndərdilər, ödəniş etdim. Ertəsi gün isə mənə sağlamlığımda heç bir problem olmadığı barədə saxta arayış göndərdilər”.

Bir daha qeyd edək ki, ”General Hospital” dəfələrlə saxta sağlamlıq arayışlarının verilməsi ilə bağlı gündəmə gəlib. Hətta bu məsələ ilə bağlı cinayət işi də başlanılmışdı. Onu da qeyd edək ki, ”General Hospital” klinikasının baş həkimi Rüstəm Mikayılovdur.

Elə bu şikayətin özü də özəl klinikaların bir çox hallarda vətəndaşın sağlamlığına nə qədər başdansovdu yanaşdığını göstərir. Müayinə və müalicə qiymətlərinin kəlləçarxa çıxdığı həmin tibb müəssisələrində xidmətin keyfiyyəti isə həmin qiymətlərlə müqayisədə, obrazlı desək, “yerdə sürünür”.

Yeri gəlmişkən, “General Hospital”la bağlı saxta arayış xəbərinin ardından Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən ”Unikal”ın sorğusuna cavab olaraq bildirilib ki, faktla bağlı Mərkəz tərəfindən araşdırma aparılır. Sitat: ”Məsələ Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin nəzarətindədir. Araşdırma başa çatandan sonra ictimaiyyətə məlumat veriləcək. Əlavə olaraq bildirilir ki, aidiyyəti müəssisə ilə bağlı Mərkəz tərəfindən bir neçə dəfə tədbirlər görülüb”.

Mərkəzin cavabında xüsusi olaraq son cümlə diqqət çəkir. Həmin cümlədən açıqca görünür ki, qurum “General Hospital”ı tənbehləyib, cəzalandırıb, lakin bunun adıçəkilən özəl klinikaya, necə deyərlər, isti-soyuğu olmayıb. Bu tibb müəssisəsi həmin cəzalandırmalardan heç bir nəticə çıxarmayıb, “köhnə hamam, köhnə tas” prinsipi ilə fəaliyyətini davam etdirib. Belə bir cəsarəti “General Hospital” rəhbərliyinin haradan aldığını bilmirik. Ancaq oxşar hal mütəmadi təkrarlanır. Məsələn, hansısa özəl klinikada sertifikatsız həkim çalışdığı ortaya çıxır, bu özbaşınalıqla bağlı lazımi ölçü götürüldüyü barədə Səhiyyə Nazirliyindən rəsmi açıqlama gəlir və...

Və bir müddət sonra aydın olur ki, eyni həkim eyni klinikada hələ də iş başındadır!

Bu cür absurd vəziyyətin yaranmasının sadə səbəbi var: əksər özəl klinikaların güclü himayəçiləri var. Bəziləri müəyyən yüksək ranqlı məmurların, bəziləri isə hansısa indiki, yaxud keçmiş deputatın nəzarətindədir, elə ona görə də özlərini toxunulmaz statusunda görürlər. Ara-sıra, hər hansı ictimai rezonans doğuran qalmaqal səbəbindən gündəmə gəldikdə isə komik məbləğlərlə cərimələnib vəziyyətdən çıxırlar. Çünki belə cərimələnmələrin əksər hallarda cəmiyyətin gözündən pərdə asmağa hesablandığını əksəriyyət yaxşı bilir.

Elə ona görə də indi nə “General Hospital”ın bir neçə dəfə cəzalandırılmasına baxmayaraq hələ də qalmaqallı hadisələrin mərkəzində dayanması təəccüblüdür, nə də digər bir çox özəl klinikaların oxşar cəzalara, tənbehlərə baxmayaraq öz bildikləri havanı çalması qəribədir. Yaranmış situasiya açıq şəkildə göstərir ki, guya insan sağlamlığının keşiyində dayanmağı özlərinin başlıca missiyası elan edən, əslində isə daha çox kimlər üçünsə biznes obyekti rolunu oynayan bu tibb müəssisələrinin özlərinin yaxşıca müayinəyə və müalicəyə ehtiyacları var!

***Toğrul Əliyev***



## Bahar Muradova Milli Məclisdə hesabat verəcək

***Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə hesabatı Milli Məclisə daxil olub.***

Hesabat yaxın günlərdə Ailə, qadın və uşaq məsələləri komitəsində müzakirə ediləcək.

Qeyd edək ki, Dövlət Komitəsinin illik hesabatında komitənin fəaliyyəti ilə yanaşı ölkədə qadınlara qarşı törədilən cinayətlər, cinsi zorakılıq halları, ailə-məişət zəminində daxil olan müraciətlər, erkən nikah və abort statistikası, uşaqlara qarşı zorakılıq faktları, eləcə də dövlət qurumlarında qadınların təmsilçilik səviyyəsi ilə bağlı göstəricilər yer alır.

AQUPDK-nın hazırkı sədri Bahar Muradovadır. Hesabatda o və müavinlərinin iştirak edəcəyi gözlənilir. Xatırladaq ki, B. Muradova uzun illər deputat kimi də fəaliyyət göstərib.

## "İstedadlı tələbələrin təcrübə keçməsi üçün şərait yaradılıb" - Rəşad Nəbiyev

***Azərbaycanda IT, kibertəhlükəsizlik, süni intellekt və əlaqəli ixtisaslar üzrə təhsilin səviyyəsi, eləcə də işəgötürənlərin universitet məzunlarından gözləntiləri ilə bağlı geniş araşdırma aparılıb. Araşdırmanın nəticələrinə əsasən, hazırda ölkədə bu ixtisaslar üzrə hər il təxminən 4 min tələbə məzun olur. Lakin işəgötürənlərlə aparılan müzakirələr göstərir ki, bu kəmiyyət göstəricisi hər zaman keyfiyyətlə üst-üstə düşmür.***

”Unikal” xəbər verir ki, bu fikirləri rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev AZCON Mühəndislik və Texnologiya Məktəbinin təqdimatına həsr olunan mətbuat konfransında deyib.

O bildirib ki, texnologiyalar sürətlə inkişaf edir və universitetlər sənaye müəssisələri və şirkətlərlə sıx əməkdaşlıq etmədən onların gözləntilərinə uyğun tələbə hazırlaya bilməz: “Bu məqsədlə Elm və Təhsil Nazirliyi ilə genişmiqyaslı proqram üzərində işlədik. Proqram məktəbdən universitetə, universitetdən isə iş həyatına qədər bütün mərhələləri əhatə edir.

Artıq proqramın icrasına başlamışıq. Bu ildən etibarən İspaniyanın “Indra” şirkəti ilə birlikdə kibertəhlükəsizlik, süni intellekt və data elmlərini əhatə edən “bootcamp” proqramına start vermişik. Digər tərəfdən, “AZCON Holding” və onun tərkibinə daxil olan şirkətlər tərəfindən qabaqcıl universitetlərin istedadlı tələbələrinin təcrübə keçməsi üçün şərait yaradılıb”.

## Bu təhsil proqramları yeniləndi

***Xor, vokal və balaban ixtisasları üzrə tədris proqramları yenilənib***

“Unikal” xəbər verir ki, bu barədə Mədəniyyət Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən incəsənət məktəb və mərkəzlərində istifadə olunan tədris proqramlarının yenilənməsi istiqamətində işlər davam etdirilir.

Bildirilib ki, Mərkəz tərəfindən daha öncə fortepiano, violin, tar, kamança, qanun, qarmon ixtisasları üzrə tədris proqramları hazırlanıb.

Prosesin davamı olaraq xor, vokal və balaban sinifləri üçün tədris proqramları müasir tələblərə uyğunlaşdırılaraq yenilənib.

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:02 PM Page 9





# Minimum əməkhaqqı nə vaxt artırılacaq?

***"Son dövrlər bizə ünvanlanan suallar içərsində minimum əməkhaqqının nə zaman artırılacağı ilə bağlı sorğular üstünlük təşkil edir. Əmək Məcəlləsinə edilən dəyişikliklərə əsasən, minimum əməkhaqqı məbləğinə ildə ən azı bir dəfə baxılacaq".***

"Unikal" xəbər verir ki, iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu, minimum əməkhaqqının artımında dövriliyin təmin olunması deməkdir: "Eyni zamanda, bununla artımlar qanunla tənzimlənəcək. Minimum əməkhaqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin bütün pillələri üzrə artımları təmin edir. Belə ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları minimum əməkhaqqı artırılandan bir ay müddətində yeni məbləğə uyğunlaşdırılaraq artırılır. Bura sosial, elm, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin vəzifə maaşları daxildir".

O bildirib ki, vahid tarif cədvəlində əməkhaqları 19 dərəcə üzrə müəyyənləşdirilir: "Hazırda ən aşağı maaş 400, ən yüksək isə 1150 manatdır. Minimum əməkhaqqının dövri olaraq artırılması praktik olaraq bütün dərəcələrə şamil olunacaq. Bu zaman maaşın minimum səviyyədən az və çox olması xüsusi önəm daşımır. Bütövlükdə, minimum əməkhaqqının artırılması 700 min vətəndaşımızın maaşlarının artmasına səbəb ola bilər. Artımın nə zaman baş verəcəyinə gəldikdə isə, Məcəlləyə olan dəyişikliklər cənab Prezident tərəfindən 23 fevral 2026-cı il tarixində təsdiq edilib. Həmin dəyişikliklərin təsdiqindən sonra minimum əməkhaqqı məbləğinə ildə ən azı bir dəfə baxılmalıdır.

Bu o deməkdir ki, dəyişikliyin təsdiq ediliyi tarixdən keçən 1 il müddətində minimum əməkhaqqı məbləğinə ən azı bir dəfə baxılaraq artırılacaq. Müəyyən illərdə daha çox artımlar ola bilər. Xüsusən nəzərə almaq lazımdır ki, minimum əməkhaqqındakı növbəti artımdan sonra proses daha da mütəmadiləşəcək. Çünki, qanunvericilik minimum əməkhaqqının ildə ən azı bir dəfə artırılmasını nəzərdə tutur".

# "Bir neçə universitetimiz TOP siyahıya düşüb" - Emin Əmrullayev

***Azərbaycanın ali təhsil müəssisələri son illər reytinqlərdə öz yerlərini yaxşılaşdırıblar.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev AZCON Mühəndislik və Texnologiya Məktəbinin təqdimatına həsr olunan mətbuat konfransında deyib.

Nazir bildirib ki, istər əmək bazarı göstəriciləri, istər dövlət göstəriciləri üzrə artıq bir neçə universitetimiz TOP siyahıya düşüb: "Amma bu, hələ azdır. Son illərdə Azərbaycanın bir çox böyük müəssisələri, xüsusilə sənaye müəssisələri istedad axtarışındadır. Onlar da ali təhsil müəssisələrinin məzunlarına və ümumiyyətlə innovasiya sahəsində kadr potensialının üzə çıxarılmasına böyük diqqət ayırırlar.

Biz xaricdə təhsil proqramlarından istifadə edirik, azərbaycanlıları xarici universitetlərə göndəririk. Artıq bir neçə ildir ki, dünyanın aparıcı universitetlərinin Azərbaycan universitetləri ilə birlikdə ikili diplom və ya əməkdaşlıq çərçivəsində belə bir modelindən istifadə olunur".

# Ziya Məmmədovla Hacıbala Abutalıbovun büdcəyə milyonlarla manatlıq zərbəsi

## 22 il öncə Bakını "tərk etməyə" məcbur olan tramvayları geri qaytarmaq üçün indi böyük pullar xərcləmək lazım gələcək



***Tramvay uzun müddətdir müzakirə olunan mövzulardan biridir. 2025-2030-cu il dövlət proqramında tramvay haqqında xüsusi maddələr qeyd olunub. Bunu "Bakı Metropoliteni" QSC-nin sədri Vüsal Aslanov "trend.az" Beynəlxalq İnformasiya Agentliyinə və "Azad Azərbaycan" Televiziyasına (ATV) müsahibəsində deyib.***

O bildirib ki, hazırda tramvayın konseptual planı hazırlanır. İlkin olaraq Mehdiabad ərazisindən Bakı şəhərinin mərkəzinə alternativ bir neçə variant müzakirə edilərək tramvayın çəkilməsi planlaşdırılır.

"Bakıda gələcəkdə 5 fərqli istiqamət üzrə tramvay olması planlaşdırılır. İlkin perspektivdə əhalinin sıx məskunlaşdığı və kütləvi ictimai nəqliyyat həllinə çıxışı olmayan ərazilərə tramvayın çəkilməsi nəzərdə tutulur. Məqsəd odur ki, tramvay metronu və avtobusu əvəzləməsin, əksinə, onları birləşdirən vasitə olsun", - deyə "Bakı Metropoliteni" QSC-nin sədri əlavə edib.

Yada salaq ki, 30 dekabr 2023-cü il tarixində təsdiqlənən Bakının Baş Planında 2040-cı ilədək paytaxtda tramvayın yenidən istifadəyə verilməsi təsbit olunub. Plana əsasən, 2040-cı ilə qədər tramvay şəbəkəsinin 54.6 kilometr uzunluğunda olması nəzərdə tutulub. Ümumilikdə 78 stansiya və dayanacaq yaradılacağı bildirilir.

Göründüyü kimi, artıq bu istiqamətdə konkret addımların atılmasına az qalır.

Qeyd edək ki, ötən il Bakı şəhərində ilk dəfə tramvayın istifadəyə verilməsindən 100 il ötüb. "Teleqraf"ın araşdırmasına görə, 1924-cü ilin 8 fevralında tramvay fəaliyyətə başlasa da, tramvay xətlərinin çəkilməsi, bunun üçün hazırlıqlara başlanması, qərarın verilməsi daha əvvəlki illərə təsadüf edir. XX əsrin ilk onilliyinin sonlarından Çar Rusiyasının mərkəzi vilayətlərində başlanan proses Qafqaza - Bakıya da gəlməli idi.

1910-cu ildəki plana əsasən, 2-3 il ərzində tramvay xəttinin inşasına başlanaraq başa çatdırılmalı və 1913-cü ildə Bakıda tramvay istifadəyə verilməli idi. Müəyyən qədər yubanma, daha sonra isə I Dünya müharibəsinin başlanması, ictimai-siyasi təbəddülatlar, inqilablar prosesi xeyli gecikdirdi. Nəhayət, Bakının tramvaya qovuşması 1924-cü ildə baş tutdu.

Həmin gün ictimai nəqliyyatın ən mütərəqqi vasitələrindən biri olan tramvayın istifadəyə verilməsi böyük bayram əhval-ruhiyyəsi ilə qarşılandı, şəhərdə şənliklər keçirildi. Tramvay xəttinin inşası ilə bağlı məsələlərin həlli isə daha əvvəldən - 1922-ci ildən başlanmışdı. 1922-ci ildə Bakıda tramvayın tikintisinin layihələndirilməsinə başlanıldı. Əvvəlcə xətlərin çəkilməsinin konsessiya yolu ilə xarici firmalara verilməsi nəzərdə tutulurdu.

Sonradan yerli resurslar hesabına bu işi görmək barədə qərar qəbul olundu və zəruri avadanlıqların SSRİ zavodlarında istehsal edilməsi daha məqbul hesab edildi. 1923-cü ilin martında şəhərin mərkəzini dəmiryol vağzalı ərazisi ilə birləşdirən dairəvi tramvay xəttinin tikintisinə başlandı. Layihə nəinki Qafqazda, hətta SSRİ-də ən böyük tikintilərdən biri hesab olunurdu.

Sonradan metro ilə yanaşı, avtobus və trolleybus da inkişaf etsə də, tramvay hər zaman əsas ictimai nəqliyyat növü kimi seçilib.

1980-90-cı illərdə qürub çağına qədəm qoyan Bakının tramvay nəqliyyatı tədricən sıradan çıxmağa, şəbəkənin uzunluğu söküntülər səbəbindən qısalmağa başladı. 2004-cü ildə tramvay şəbəkəsinin son xətti də söküldü və bu nəqliyyat növü yaranmasından 80 il sonra Bakını "tərk etdi". Və bu prosesdə Bakının ovaxtkı meri Hacıbala Abutalıbovla həmin dövrdə nəqliyyat naziri postunu tutan Ziya Məmmədovun "xüsusi xidmətlərini" xatırlatmağa dəyər. Hətta Abutalıbov Tramvay Parkının ərazisini 2 milyon dollara sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevə satdığı, sonradan Z.Məmmədovun F.Əliyev ilə razılaşaraq həmin ərazini 4 milyon dollar ödəməklə öz nəzarətinə keçirdiyi barədə xəbərləri yada salmaq da pis olmazdı.

Bundan başqa, tramvay şəbəkəsinin son xəttinin söküldüyü 2004-cü ildə Abutalıbov demişdi ki, bu nəqliyyat növünün gündəlik enerji istisması baha başa gəlir və tramvaylardan sərnişinlər az istifadə edirlər.

Nəticə etibarilə tramvay xətləri söküldü, yerində kommersiya obyektləri, yüksək mərtəbəli binalar tikdilər. Bunun, eləcə də, sökülüb əridilən polad relslər hesabına kimlərinsə cibləri doldu. İtirən isə Bakı və bakılılar oldu.

Bir çoxları paytaxtımızda tramvay nəqliyyatının "arxivə göndərilməsini" doğru saymırdılar. Hesab edilirdi ki, bu nəqliyyat növünün modernləşdirilməsi, müasirləşdirilməsi lazımdır. İndi hər şey bir yana paytaxtdakı tıxacları görəndə həmin fikirlə razılaşmamaq olmur.

Bir sözlə, gələcək tramvay şəbəkəsinin axırına çıxanlara etiraz edənlərin nə qədər haqlı olduğunu ortaya qoydu. Cəmi 22 il sonra tramvayı yenidən Bakıya qaytarmaq üçün dövlət on milyonlarla manat xərcləməli olacaq. Özü də xeyli dərəcədə Ziya Məmmədov, Hacıbala Abutalıbov kimi məmurların səbatsızlığı ucbatından!

***Sənan Mirzə***

18_27 IYUI-QARA.qxd 5/14/2026 10:02 PM Page 10



# Vətəndaşı "kredit vergisi" altında əzən oliqarxlar...

***Bu ilin əvvəllərindən etibarən Azərbaycandakı bankların kredit faizlərində artım müşahidə olunur. Hələ yanvar ayında məlum olmuşdu ki, ötən il 11-17 faizlə kredit təklif edən banklarda indi faiz dərəcəsi meyarlardan asılı olaraq 18 faizdən başlayaraq təklif edilir.***

Həmin vaxt iqtisadçı Xalid Kərimli bildirmişdi ki, kredit fazilərində müşahidə olunan artıma səbəb Mərkəzi Bankın apardığı sərt pul siyasətidir. Belə ki, banklar əhalidən pul cəlb etmək üçün əmanət faizlərini qaldırır. Bu da bank üçün pulun maya dəyərinin artması eyni dövründə kartla verilən kreditlər üzrə faiz dərəcəsi 25% təşkil edib.

Rüblük olaraq məişət avadanlıqlarının alınması ilə bağlı kreditlər üzrə faiz dərəcəsi 26%, yaşayış sahəsinin təmiri ilə bağlı kreditlər üzrə 18%, avtomobil kreditləri üzrə isə 13% səviyyəsində formalaşıb. Müqayisə üçün: 2025-ci ilin birinci rübündə yaşayış sahəsinin təmiri ilə bağlı kreditlər üzrə 16% və avtomobil kreditləri üzrə isə 12% səviyyəsində idi.

İstehlak kreditlərinin ümumi həcmi 31 mart 2026-cı il tarixinə 9,5 mlrd. manat təşkil edib. Yəni, vətəndaşın tək istehlak yüksək olduğuna işarədir. Məsələ burasındadır ki, bank faizləri ölkədəki inflyasiya səviyyəsindən birbaşa asılıdır. Banklar kreditlərə daha yüksək faizlər tətbiq etməklə inflyasiya səbəbindən pulun itirilən dəyərini kompensasiya edirlər. Bir sözlə, inflyasiya pulun dəyərinin azalmasına səbəb olduğundan, banklar pullarını dəyər itkisindən qorumaq üçün faizləri yüksək saxlayırlar.

Kredit faizlərinin yüksək olmasında başqa bir mühüm amil kimi bu sahədə ciddi rəqabətin olmaması göstərilir.

Ümumiyyətlə, Azərbaycan Mərkəzi Bankının uçot dərəcəsini endirməsi (son olaraq bu



deməkdir. Bank isə baha aldığı vəsaiti daha baha satdığından kredit faziləri artır.

Ekspert əlavə etmişdi ki, Mərkəzi Bank hələ də inflyasiya risklərini tam keçmiş hesab etmədiyi üçün faizləri aşağı salmağa tələsmir. Belə olan halda isə faizlərin enməsi gözlənilən deyil.

İqtisadçının fikrincə, 3 il əvvəl başlayan sərtləşdirmə tədbirlərinin real nəticələri indi tam hiss olunur. Bu isə pul-kredit siyasətinin iqtisadiyyata gecikmə ilə təsir göstərdiyini sübut edir.

Bu günlərdə isə başqa bir iqtisadçı ekspert Natiq Cəfərli daha ilginc məqamlara toxunmuşdu. "Vətəndaş "kredit vergisi" altında əzilir. Bəli, "de-jure" olmasa da, faktiki olaraq kredit faizləri "vergi" növüdür, yükdür" deyən iqtisadçının sözlərinə görə, cari ilin ilk rübündə kredit kartları vasitəsilə verilən kreditlər üzrə orta faiz dərəcəsi 27%-ə yüksəlib. Müqayisə üçün: 2025-ci ilin kreditlərinə görə 10 mlrd. manata yaxın borc yükü və ölkədə uşaqlı-böyüklü hamını nəzərə alsaq, hər 3 nəfərdən birinin kredit borcu var. Kredit borcu olan vətəndaşların sayı, rəsmi əmək müqaviləsi ilə çalışan insanların sayından, hardasa, 500 min nəfər çoxdur.

N.Cəfərlinin fikrincə, yuxarıdakı rəqəmlər ölkə iqtisadiyyatında iqtisadi alətlərin işləmədiyinin əyani sübutudur: Mərkəzi Bank doğru olaraq uçot faiz dərəcələrini aşağı salır - məntiqlə, kredit faizləri paralel olaraq ucuzlaşmalıdır, amma, ölkədə normal, hesab-kitabla ölçülə bilən, elmi yanaşma ilə izahı olan iqtisadi model olmadığına, iqtisadiyyat hüquqşünaslar tərəfindən "əl ilə" idarə olunduğuna görə kredit faizləri artır. Sitat "Başqa sözlə, bu iqtisadi model effektiv, sürdürüləbilən deyil..."

Bəzi mütəxəssislərin fikrincə isə bankların kredit faizlərini yüksəltməsi həm də ölkədə real inflyasiyanın daha ilin fevralında 6.5 faiz) və ölkəmizdəki uçot faiz dərəcəsi MDB məkanı üçün kifayət qədər əlverişli sayıldığı halda bankların verdiyi kreditlərin ucuzlaşmaması, əksinə, daha da bahalaşması yetərincə absurddur. Bir müddət öncə, iqtisadçı Rövşən Ağayevin dediyi kimi, həm nəzəri baxımdan, həm də normal bazar mexanizmlərinin işlədiyi iqtisadiyyatlarda mərkəzi banklar uçot dərəcəsini azaldanda kreditlər ucuzlaşmalıdır. Lakin bizdə 2018-ci ilin sonunda uçot dərəcəsi 9,75%, həmin dövrdə manatla yeni verilmiş kreditlər üzrə orta faiz dərəcəsi 15,9% olub. 2025-ci ilin sonunda isə uçot dərəcəsi 6,75% təşkil etdiyi halda, həmin dövrdə manatla yeni verilmiş kreditlər üzrə orta faiz dərəcəsi 17,7% müəyyənləşib. Bu absurd hələ də davam edir və vətəndaş kredit faizlərinin ağırlığı altında əzilərkən, qazanan yenə də oliqarxlar olur...

***Sənan Mirzə***

## Neftin qiyməti yüksəlirsə, niyə neft-qaz sektoru azalır? - Açıqlama



***"Bu ilin ilk rübündə müşahidə olunan mənfi dinamikanın ardından artıq aprel ayından etibarən Azərbaycan iqtisadiyyatında yenidən müsbət hərəkət görünməyə başlayıb".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O bildirib ki, yanvar-aprel aylarında Azərbaycanda 39 milyard 875,1 milyon manatlıq ümumi daxili məhsul istehsal olunub və iqtisadiyyat ötən ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz artıb.

"Amma neft-qaz sektorunda geriləmə var. Belə ki, neft-qaz sektorunda əlavə dəyər 0,9 faiz azalaraq 12 milyard 135 milyon manata düşüb. Çox vaxt sual verilir ki, neftin qiyməti yüksəlirsə, niyə neft-qaz sektorunda azalma görünür? Səbəb ondadır ki, ÜDM hesablanarkən neftin bazardakı satış qiyməti deyil, ölkədə nə qədər neft və qaz hasil olunduğu, yəni, istehsal həcmi əsas götürülür. Hasilat azalanda, qiymətlər yüksək olsa belə statistik olaraq sektorda azalma olur.

Qeyri-neft-qaz sektoru isə 0,7 faiz artaraq 27 milyard 740,1 milyon manata çatıb. Bu da iqtisadi aktivliyin getdikcə daha çox qeyri-neft sahələri hesabına formalaşdığını göstərən müsbət siqnaldır. Birinci rübdəki mənfi 0,3 faizlik nəticədən sonra dinamikanın aprel ayında müsbət 0,2 faizə keçməsi göstərir ki, bu temp qorunarsa, 2026-cı ilin sonuna ÜDM artımının təxminən 1,3-1,5 faiz civarında olacağını ehtimal etmək olar. Hətta iqtisadi aktivliyi gücləndirən əlavə qərarlar və addımlar olarsa, bu temp daha da sürətlənə bilər".

## Azərbaycan təmsilçisi Qlobal Cənub QHT Platformasına baş katib seçilib

***Azərbaycan təmsilçisi Fuad Kərimli Qlobal Cənub Qeyri-Hökümət Təşkilatları Platformasının (GSNP) baş katibi seçilib.***

Bu barədə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi məlumat yayıb. Fuad Kərimli GSNP Baş Assambleyasında təşkilatın Baş katibi seçilib. Beləliklə, qarşıdakı 5 il müddətində təşkilata sədrliyi Azərbaycanın QHT təmsilçisi edəcək.

Eyni zamanda regional istiqamətlər üzrə baş katibə dörd müavin seçilib.

F.Kərimli bundan əvvəl GSNP Katibliyində çalışıb.

## Dövlət Məşğulluq Agentliyinin departament rəhbəri işdən çıxdı

***Dövlət Məşğulluq Agentliyinin Kommunikasiya departamentinin rəhbəri Mayis Musayev vəzifəsindən ayrılıb.***

"Unikal" xəbər verir ki, bu barədə onun özü bildirib: "Dövlət Məşğulluq Agentliyindəki fəaliyyətim bu gün etibarilə yekunlaşdı. Vətəndaşlarımızın məşğulluğunun təmin edilməsi kimi strateji və məsuliyyətli bir missiyanın parçası olmaq mənim üçün sadəcə bir iş deyil, böyük bir qürur və şərəf idi. Bu müddət ərzində dövlətə və vətəndaşa xidmət etməyin məsuliyyətini və gözəlliyini dərindən hiss etdim.

Xüsusilə Kommunikasiya departamentindəki peşəkar komandama, hər bir həmkarıma göstərdikləri dəstək, paylaşılan bilik və birgə imza atdığımız uğurlu layihələr üçün sonsuz təşəkkürlərimi bildirirəm".

M.Musayev yeni işə başlayacağını da qeyd edib.

Xatırladaq ki, Mayis Musayev daha əvvəl Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqrar Tədarük və Təchizat" ASC-nin mətbuat katibi vəzifəsində çalışmışdı.

O, 2021-ci ildə Dövlət Məşğulluq Agentliyinin Kommunikasiya departamentinin rəhbəri işləhyirdi.

## Tanınmış hakim təqaüdə göndərildi

***Bakı Apellyasiya Məhkəməsinin hakimi Akif İsgəndərov təqaüdə göndərilib.***

"Unikal" xəbər verir ki, yaş həddi ilə əlaqədar onun hakimlik fəaliyyəti başa çatıb. Qeyd edək ki, Akif İsgəndərov uzun illər Azərbaycan Respublikası Ali Məhkəməsinin və Bakı Apellyasiya Məhkəməsinin hakimi kimi fəaliyyət göstərib.

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:02 PM Page 11





# DİM sədri buraxılış imtahanlarında ediləcək dəyişiklikdən danışdı

***Gələcəkdə buraxılış imtahanında xarici dil üzrə danışıq bacarığının yoxlanılması tətbiq edilə bilər.***

"Unikal" xəbər verir ki, bunu APA-ya müsahibəsində Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə deyib.

DİM sədri qeyd edib ki, hazırda bu imtahanlarda üç komponent, bacarıq yoxlanılır: "Buraxılış imtahanlarında xarici dil üzrə hələ ki, danışıq bacarığının yoxlanılması tətbiq edilmir. Test blokunda oxuyub-anlama və dinləyib-anlamanı yoxlayan tapşırıqlar yer alır. Lakin növbəti mərhələlərdə danışıq qabiliyyətinin yoxlanılması ilə bağlı da dəyişikliklər ola bilər".

O həmçinin bildirib ki, növbəti il XI sinfin buraxılış imtahanında şagirdlərin xarici dil fənni üzrə yüz sözdən ibarət kiçik həcmli yazı yazması nəzərdə tutulur: "Bu tapşırığın yerinə yetirilməsi ümumi imtahan vaxtına təxminən 15 dəqiqə əlavə edilməsini tələb edə bilər. Məsələ hazırda hələ müzakirə olunur. Normativ-hüquqi sənədlər də buna uyğun olmalıdır. Əgər təsdiq olunarsa, rəsmi şəkildə elan ediləcək".

Məleykə Abbaszadə eyni zamanda gələcəkdə informatika üzrə də imtahanların rəqəmsallaşdırılmasının nəzərdə tutulduğunu açıqlayıb: "Eyni zamanda bəzi imtahanların, magistraturaya qəbul imtahanının rəqəmsallaşdırılması planlaşdırılır. Bu istiqamətdə mərhələli dəyişikliklər aparılır. Rezidenturaya qəbul imtahanının da ikinci mərhələsi bu ildən elektron olacaq".

# 2025-ci ildə Yevlax şəhəri üzrə ödənişli xidmətlər və iaşənin vəziyyətinə dair statistika




***2025-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2024-cü il ilə müqayisədə real ifadədə 0,5 faiz artaraq 91882,6 min manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 20261,9 min manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 22,0 faizini təşkil etmişdir.***

2025-ci ildə hər bir rayon sakini orta hesabla 650 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 43,4 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər ödənişli xidmətlərin başqa növləri ilə müqayisədə məişət xidmətləri sahəsində daha geniş fəaliyyət göstərmiş, onlar tərəfindən əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 14175,5 min manat və ya 15,4 faiz olmuşdur.

2025-ci ildə ictimai iaşə dövriyyəsi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 2,8 faiz artaraq 19300,1 min manat olmuşdur.

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 0,7 faizi hüquqi şəxs statuslu müəssisələrin, 99,3 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyə 2024-cü il ilə müqayisədə 95,0 min manat çox olmuşdur.

2025-ci ildə fiziki şəxslərin iaşə şəbəkələrində 19162,3 min manatlıq və ya 2024-cü ildən faktiki qiymətlərlə 1393,8 min manat, müqayisəli qiymətlərlə isə 2,3 faiz çox iaşə xidməti göstərilmişdir.

***Yevlax Şəhər Statistika İdarəsinin məsləhətçisi Türkan Familli***

# Azərbaycanın turizm bölgələrində qandonduran qiymətlər

## Yay yaxınlaşdıqca ağlasığmaz bahalaşma: artıq kirayə evlər də "əl yandırır"

***Yay mövsümünün yaxınlaşması ilə Azərbaycanın turizm bölgələrində kirayə ev və bağ evlərinin qiymətlərində artım müşahidə olunur.***

Xüsusilə Quba, Qusar, Şəki, Qəbələ, İsmayıllı, Lənkəran və Nabran kimi istirahət zonalarında gündəlik və aylıq kirayə qiymətləri ötən aylarla müqayisədə daha yüksək təklif edilir.

Yay aylarında bölgələrə turist axınının artması bazarda qiymətlərə birbaşa təsir edir. Daşınmaz əmlak bazarında fəaliyyət göstərən mütəxəssislər xüsusilə may ayının sonundan etibarən kirayə evlərə tələbatın sürətlə artdığını bildirirlər. Bu səbəbdən ev sahibləri qiymətləri mərhələli şəkildə qaldırmağa başlayırlar.

Milli.az-ın araşdırmasına görə, müşahidələr göstərir ki, hazırda bəzi turizm rayonlarında günlük kirayə verilən bağ evlərinin qiyməti 80-100 manatdan başlayır. Daha komfortlu və hovuzlu evlərdə isə qiymətlər 300-500 manata qədər yüksəlir. Bayram günləri və həftəsonlarında isə qiymətlər daha da artır.

Əmlak məsələləri üzrə ekspertlər hesab edirlər ki, qiymət artımına təsir edən əsas amillərdən biri təklifin tələbi tam qarşılamamasıdır. Yay mövsümündə ailələrin bölgələrdə istirahətə üstünlük verməsi kirayə bazarında aktivliyi artırır. Bundan başqa, hotellərdə qiymətlərin yüksəlməsi də bəzi turistləri fərdi ev və kotteclərə yönəlməsinə səbəb olur.

Son aylarda ölkədə kirayə mənzil bazarında ümumi bahalaşma müşahidə edilir. Yay mövsümü yaxınlaşdıqca bu artım daha da sürətlənir.

Bölgələrdə xüsusilə günlük kirayə bazarı daha sürətlə bahalaşır. Ötən illərlə müqayisədə bu il erkən rezervasiyaların sayında da artım var. Turizm şirkətləri bildirirlər ki, bəzi məşhur istirahət məkanlarında iyun və iyul ayları üçün evlərin bir hissəsi artıq bron edilib.

Mütəxəssislər vətəndaşlara yay mövsümündə yüksək qiymətlərlə qarşılaşmamaq üçün əvvəlcədən rezervasiya etməyi tövsiyə edirlər. Onların fikrincə, mövsüm tam başladıqdan sonra həm seçim imkanları azalır, həm də qiymətlər daha yüksək olur.

Rəsmi statistikalar da kirayə bazarında artımı təsdiqləyir. Son məlumatlara əsasən, ölkədə kirayə mənzillərin orta qiymətində illik artım qeydə alınıb.

Qeyd edək ki, yay yaxınlaşdıqca Bakı ətrafındakı bağ evlərində də fantastik qiymətlər müşahidə edilməkdədir. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc bu günlərdə "musavat.com"a açıqlamasında bildirib ki, may ayından etibarən bağ evlərinə tələbat daha da aktuallaşır və qiymətlər hər il əvvəlki dövrlə müqayisədə orta hesabla 10-15 faiz, bəzi hallarda isə 20 faizədək artır. Onun sözlərinə görə, əsas tələbat olan ərazilər isə Mərdəkan, Nardaran, Noxanı, Bilgəh, Pirşağı və Şüvəlandır. Bu ərazilər həm havasına, həm də istirahət üçün əlverişli şəraitinə görə digər məkanlardan daha çox seçilir. Sitat: "Hazırda yay mövsümü üçün təqdim olunan bağ evlərinin kirayə qiymətləri təxminən 4 min manatdan başlayaraq 10 min manata qədər dəyişir. Ötən il isə bu rəqəmlər əsasən 3-8 min manat aralığında idi. Göründüyü kimi, bazarda təxminən 20 faizə qədər qiymət artımı müşahidə olunur və bu prosesin yay aylarının sonuna qədər davam edəcəyi gözlənilir".

Məsələ ilə bağlı rieltor Hacıbala Quliyev isə təzəlikcə mediaya bildirmişdi ki, evlərin aylıq ödənişləri 1000 manatdan başlayaraq 40 min manata qədər yüksəlir: "Daha çox tələb 1 000-1 500 manat aralığında olan evlərə yönəlir. Ancaq bu qiymət kateqoriyasında təklif az olduğu üçün seçim imkanları məhduddur. Kirayəçilər seçim zamanı əsasən evin təmir səviyyəsinə və otaq sayına diqqət edirlər".

Beləliklə, görünən odur ki, orta statistik vətəndaş üçün istər Bakı ətrafında, istərsə də ölkənin turizm bölgələrində yay aylarında istirahət etmək getdikcə lüksə çevrilir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda hotel qiymətləri çox yüksək olduğundan zəif maddi imkana malik insanlar daha çox ev kirayələməyə üstünlük verirlər. Gedişat onu göstərir ki, artıq bu seçim imkanı da aradan qalxmaqdadır. Bu cür davam edərsə, ölkədə daxili turizm sadəcə 15-20 faiz üçün əlçatan olacaq, mütləq əksəriyyət yay istirahətindən məhrum qalacaq.



Yeri gəlmişkən, bu yay xaricə olan turpaketlərin də qiymətində bahalaşma müşahidə edilməkdədir. Turizm məsələləri üzrə ekspert Ceyhun Aşırov "İqtisadiyyat.az"a açıqlamasında deyib ki, sözügedən turpaketlərdə bahalaşmanın səbəbi qlobal miqyasda yanacağın qiymətinin artmasıdır. Sitat: "Ümumilikdə xaricə gedən turistlərin sayının ötənilkindən çox olacağını ehtimal etmirəm. Eyni zamanda ölkəyə gələn turistlərin sayında da təxminən ötənilki ilə eyni rəqəmlərin olacağını deyə bilərik".

Beləliklə, son illərdə onsuz da çoxlarımız üçün heç də asan başa gəlməyən yay istirahəti getdikcə xəyala çevrilməkdədir. "Bu problemin həlli varmı" sualının cavabını isə belə görünür ki, aidiyyatı qurumlarda hələlik kimsə bilmir.

***Sənan Mirzə***

## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionlarda 5700 iş yeri yaradılacaq!

## Məhəmməd Talıblı: "Təxminən yarım milyard manatlıq investisiyanın yarada biləcəyi dəyəri ölçmək üçün zaman lazımdır"

***Müasir dövrdə ölkələrin dayanıqlı inkişafının təmin olunması yalnız paytaxt və iri şəhərlərin deyil, həm də regionların sosial-iqtisadi potensialının gücləndirilməsindən birbaşa asılıdır. Azərbaycanda regionların inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən olunub. İllərdir ki, bu sahədə ardıcıl proqramlar həyata keçirilir. Regionların sosial-iqtisadi inkişafının təşviqi əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, infrastrukturun yaxşılaşdırılması və iqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Regionların mövcud imkanlarının səmərəli istifadəsi və davamlı inkişafın təmin edilməsi ölkənin ümumi iqtisadi tərəqqisinin əsas şərtlərindən biridir. Çünki hər bir region özünəməxsus təbii ehtiyatlara, əmək resurslarına, istehsal və kənd təsərrüfatı potensialına malikdir. Bu imkanlardan düzgün və planlı şəkildə istifadə edildikdə, yalnız həmin bölgələrin deyil, bütövlükdə ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə verilir.***

Eyni zamanda, regionlarda infrastrukturun modernləşdirilməsi, sahibkarlığın dəstəklənməsi və investisiya mühitinin yaxşılaşdırılması iqtisadi fəallığın artmasına şərait yaradır. Bu isə öz növbəsində yeni iş yerlərinin yaradılmasına, əhalinin gəlir səviyyəsinin yüksəldilməsinə və miqrasiyanın azalmasına gətirib çıxarır. Davamlı inkişaf prinsiplərinin tətbiqi isə təbii ehtiyatlardan səmərəli istifadəni təmin edərək gələcək nəsillər üçün balanslı iqtisadi mühitin formalaşmasına xidmət edir.

Beləliklə, regionların potensialının düzgün qiymətləndirilməsi və onların inkişafının sistemli şəkildə təşkili ölkənin sosial-iqtisadi sabitliyinin möhkəmləndirilməsində həlledici rol oynayır.

Bəs görəsən regionlarda ötən il bu məqsədlə hansı işlər görülüb?

"Azərbaycan Biznesinin İnkişafı Fondu"ndan "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, 2025-ci il ərzində Azərbaycan Biznesinin İnkişafı Fondu sahibkarlıq subyektlərinin 6210 investisiya layihəsinə 412,5 milyon ma-



nat güzəştli kredit ayırıb. Verilən güzəştli kreditlərin reallaşdırılması nəticəsində 5700-dək yeni iş yerinin yaradılması nəzərdə tutulub. Verilmiş kreditlərin 63%-dən çoxu regionlarda icra olunan layihələrə yönəldilib.

Qurumdan bildirilib ki, bu statistika ümumilikdə Azərbaycan iqtisadiyyatında dövlət dəstəyinin real sektora və xüsusilə regionlara yönəldiyini göstərən müsbət bir mənzərə yaradır.

6210 investisiya layihəsinin maliyyələşdirilməsi biznes fəallığının yüksək olduğunu göstərir. Bu, daha çox kiçik və orta sahibkarlığın (KOS) inkişaf etdiyini və bazara yeni layihələrin daxil olduğunu deməyə əsas verir.

5700-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Bu, birbaşa məşğulluğun artması deməkdir. Əgər layihələr tam reallaşarsa, bu, əmək bazarında xüsusilə regionlarda işsizlik təzyiqini azalda bilər.Kreditlərin 63%-dən çoxunun regionlara yönəlməsi isə o deməkdir ki, iqtisadi inkişaf yalnız Bakı ilə məhdudlaşmır, regionlarda istehsal və xidmət sektorları güclənir, miqrasiyanın azalmasına, yəni kənddən şəhərə axının zəifləməsinə töhfə verilə bilər.

Həmçinin güzəştli kreditlər adətən kənd təsərrüfatı, emal sənayesi, xidmət və kiçik istehsal sahələrinə yönəlir. Bu isə iqtisadiyyatın neftdən asılılığını azaltmaq strategiyasını gücləndirir.

Bu statistika iqtisadi fəallığın artdığını, dövlətin sahibkarlığı stimullaşdırdığını və regionların inkişafının prioritet olduğunu göstərir. Bu cür genişmiqyaslı kredit proqramlarının təsiri adətən dərhal yox, 3-5 il ərzində mərhələli şəkildə görünür. Əgər kreditlər səmərəli layihələrə yönəldilərsə, kənd təsərrüfatı, emal sənayesi və xidmət sektoru genişlənə bilər, yerli istehsal artdığı üçün idxaldan asılılıq qismən azala bilər.

ÜDM-də qeyri-neft sektorunun payı yüksələr. Kreditlərin 63%-nin regionlara yönəlməsi uzunmüddətli perspektivdə yeni istehsal və emal mərkəzlərinin yaranmasına, rayonlarda kiçik və orta biznesin güclənməsinə, şəhərə miqrasiyanın azalmasına təsir göstərə bilər.

İlkin mərhələdə 5700 iş yeri nəzərdə tutulsa da, 5 il ərzində dolayı təsirlər daha böyük ola bilər. Hər bir birbaşa iş yeri əlavə xidmət və logistika işləri yaradır, kiçik bizneslərin artması yeni məşğulluq zənciri formalaşdırır. Davamlı kredit proqramları isə öz növbəsində sahibkarlıq təcrübəsini artırır, maliyyə savadlılığını gücləndirir banklarla biznes arasında əlaqəni genişləndirir.

Amma sözsüz ki, bu nəticələrin reallaşması birbaşa layihələrin keyfiyyəti, idarəetmə şəffaflığı və bazar imkanlarından asılı olacaq.

İqtisadçı Məmməd Talıblı da "Unikal" qəzetinə açıqlamasında bildirib ki, təxminən yarım milyard manatlıq investisiyanın yarada biləcəyi dəyəri ölçmək üçün zaman lazımdır. Müsahibimiz deyir ki, regionların sosial-iqtisadi inkişafı üçün 70 milyard manatdan daha çox investisiya qoyulub, amma hələ də bölgələrdən Bakıya axın davam edir. Onun sözlərinə görə, ölkə üzrə ÜDM-nin 76 faizi Bakı şəhərində, cəmi 24 faizi isə regionlarda formalaşır. Ona görə verilən resursa yox, onun yarada biləcəyi dəyərə və nəticəyə baxmaq lazımdır.

M. Talıblı bildirir ki, "Azərbaycan Biznesinin İnkişafı Fondu"nun statistikasından belə görünür ki, hər bir nəfər üçün iş yerinin açılması dövlət büdcəsinə 72 min manata başa gəlir:"Müqayisə üçün bildirim ki, əvvəlki illərdə bu rəqəm təxminən 25 min manat civarında idi. Biznesin inkişafı üçün təkcə maliyyə resursu kifayət etmir. Bu əsasdır, lakin biznes subyektlərinin bütün dərdlərinin çarəsi deyil. İnstitsional mühit çox önəmlidir. Yerli icra qurumlarının biznesə münasibəti, fiskal siyasət, məhkəmə-hüquq sisteminin ədalətli qərarqəbuletmə mexanizmi və s. mühüm rol oynayır. Biznesi finans baxımdan qidalandıran şərt heç zaman dayanıqlı inkişaf yaratmır. Onun üçün çoxistiqamətli tədbirlər hesabına biznesi ayaqda tutan sistem lazımdır. O yaranmayana qədər, resursların effektivliyi sual altında olacaq".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## "Həmin tələbələr praktik bacarıqlara da yiyələnəcəklər" - Nazir

***AZCON Mühəndislik və Texnologiya Məktəbini digər ali təhsil müəssisələrindən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, tələbələr burada nəzəri biliklərlə yanaşı, praktik bacarıqlara da yiyələnəcəklər. AZCON isə bu prosesdə yalnız sponsor qismində çıxış etməyəcək, eyni zamanda, kurikulumun formalaşdırılmasında birbaşa iştirak edən təsisat olacaq.***

"Unikal" xəbər verir ki, bu fikirləri rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev AZCON Mühəndislik və Texnologiya Məktəbinin təqdimatına həsr olunan mətbuat konfransında deyib.

Onun sözlərinə görə, aparılan uzunmüddətli müşahidə və araşdırmalardan sonra belə qənaətə gəlinib ki, bu istiqamətdə Azərbaycan Texniki Universiteti ilə əməkdaşlıq etmək qarşıya qoyulan məqsədlərə daha qısa müddətdə nail olmaq baxımından ən doğru addımdır: "Münxen Texniki Universitetinin nümayəndələri həm AZCON-a, həm də Azərbaycan Texniki Universitetinə inanaraq belə bir əməkdaşlığa qoşuldular. Əminəm ki, bir neçə ildən sonra bu universitetin tələbələri yalnız iş axtaran deyil, eyni zamanda, iş yaradan gənclər olacaqlar. Başqa sözlə, onlar ölkədə startap ekosisteminin formalaşmasına birbaşa təkan verəcəklər".

## Məlumatları yerli "bulud"da saxla - Xərclərə qənaət et!

***Azərbaycanın ilk ictimai bulud platforması olan "AZINCLOUD" istifadəçilərə "istifadə etdiyin qədər ödə" (Pay-as-you-go) modelini təklif edir.***

"Unikal" xəbər verir ki, "AZINCLOUD" biznesləri maliyyə yükündən azad edərək, ilkin sərmayə olmadan, istifadə olunan resurslara görə ödəniş etmək və İT xərclərini optimallaşdırmaq imkanı yaradır.

Ödəniş üçün abunəçinin platformada bank kartı detallarını bir dəfə qeyd etməsi kifayət edir və hər ayın sonunda istifadə olunan xidmət həcminə uyğun müvafiq məbləğ avtomatik balansdan çıxılır. Eyni zamanda, sistem vasitəsilə hər bir müştəri şəxsi hesabından ödəniş tarixçəsinə maneəsiz nəzarət edə bilir. Platforma Azərbaycan dilində interfeysə malikdir və bütün xidmətlər Azərbaycan manatı ilə təqdim edilir. Bu amillər isə əlavə bank komissiyalarını aradan qaldırır.

Qeyd edək ki, istifadəçilər istənilən vaxt abunəliyini sonlandırma hüququna da malikdir.

18_27 IYUI-QARA.qxd 5/14/2026 10:02 PM Page 13



# Ucarda əhaliyə göstərilən ödənişli xidmətlər

***2026-cı ilin yanvar-mart aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2025-ci ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artaraq 13217,5 min manat təşkil etmişdir.***

| Göstəricilərin adı | yanvar-mart ayları | | |
|---|---|---|---|
| | 2026-cı il | 2025-ci il | 2025-ci ilə nisbətən, faizlə |
| **Ödənişli xidmətlərin həcmi, cəmi** | **13217,5** | **12148,4** | **102,9** |
| o cümlədən: hüquqi şəxslər üzrə | 3344,8 | 2780,8 | 113,8 |
| hüquqi şəxs yaratmadan xidmət fəaliyyəti göstərən fərdi sahibkarlar üzrə | 9872,7 | 9367,6 | 99,7 |




### Kənd təsərrüfatı

2026-cı ilin yanvar-mart aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 65507,8 min manat təşkil etmiş və 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə 4,6 faiz çox olmuşdur.

2026-cı ilin yanvar-mart aylarında 2981,9 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır. Bu dövrdə 317,0 hektar sahədə kartof, 897,0 hektar sahədə tərəvəz, 3,0 hektar sahədə bostan bitkiləri, 0,9 hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (arpa), 1764,0 hektar sahədə çoxillik otlar (yonca) əkilmişdir.




### Ümumi məhsul buraxılışı

2026-cı ilin yanvar-mart aylarında rayon üzrə ümumi məhsul buraxılışı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz artaraq 96714,8 min manat təşkil etmişdir.

Ümumi məhsul buraxılışının 67,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 23,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 5,2 faizi sənaye sahəsində, 1,9 faizi tikinti sahəsində, 1,5 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,6 faizi informasiya və rabitə sahəsində istehsal edilmişdir.

### İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı və məhsul buraxılışının fiziki həcm indeksi

| Göstəricilərin a | yanvar-mart ayları | | | |
|---|---|---|---|---|
| | 2026-cı il | 2025-ci il | 2025-ci illə müqayisəsi | |
| | | | fərqlə (+;-) | faizlə |
| **Ümumi məhsul buraxılışı** | **96714,8** | **87854,2** | **+8860,6** | **103,4** |
| o cümlədən: kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 65507,8 | 59006,8 | +6501,0 | 104,6 |
| sənaye | 4980,1 | 4893,8 | +86,3 | 84,9 |
| tikinti | 1824,2 | 1469,9 | +354,3 | 124,1 |
| ticarət: nəqliyyat vasitələrinin təmiri | 22340,1 | 20999,3 | +1340,8 | 100,7 |
| nəqliyyat və anbar təsərrüfatı | 1480,6 | 892,0 | +588,6 | 158,5 |
| informasiya və rabitə | 582,0 | 592,4 | -10,4 | 96,4 |

***Ucar rayon Statistika İdarəsi***

## ELAN

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən "Dənizkənarı Milli Park" MMC-yə verilmiş 9 (doqquz) ədəd gəmi bileti itdiyi üçün etibarsız sayılır.**

# Hantavirusa yoluxduğumuzu necə bilək? - Xəstəlik gizli yayılır

***Xəbər verdiyimiz kimi, bir ay əvvəl Argentinaya yola düşən kruiz gəmisində epidemiya baş verib. Səkkiz nəfər yoluxub, 3 nəfər ölüb.***

"Unikal" xəbər verir ki, hazırda hantavirus vəziyyəti getdikcə pisləşir. Digər viruslar kimi, onun da mutasiyaya uğradığı və tədricən uyğunlaşdığı aşkar edilib.

ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesus bildirib ki, gəmidə hantavirusun yayılması COVID-19 pandemiyasının ilkin mərhələlərindən fərqlidir.

Hantavirus yoluxmuş gəmiricilərlə təmas yolu ilə ötürülür.

Gəmi Kabo-Verdenin paytaxtı Praya sahilində lövbər salıb. Hakimiyyət orqanları sərnişinləri və heyət üzvlərini sahilə buraxmayıb - yalnız qoruyucu geyimli tibb işçilərinə gəmiyə minməyə icazə verilib. Sərnişinlərə maskalar verilib, kabinələrinə yemək qoyulub və göyərtədə bir-bir gəzməyə icazə verilib.

Artıq bəzi sərnişinlər öz ölkələrinə təxliyə edilib.

Ağır hallarda ölüm nisbəti 40 faizə qədərdir və bunun üçün peyvənd yoxdur. Lakin, panikaya ehtiyac yoxdur. Yüngül yoluxmaların yalnız 4%-i sağalmır. Virus adətən insandan insana yayılmır. Bununla belə, Cənubi Afrika gəmidəki iki xəstədə "Andes" ştamının olduğunu təsdiqləyib. Bu, nadir hallarda yoluxucu olan bir istisnadır. Həkimlər deyirlər ki, əgər infeksiya həqiqətən də belə baş veribsə, bu, tibb elmində dəyişikliyə səbəb olacaq. ÜST bildirir ki, geniş ictimaiyyət üçün risk azdır.



ÜST gəmidə baş verən epidemiya səbəbindən İspaniyaya müraciət etdi, çünki Kanar adaları xəstələri qəbul etmək qabiliyyətinə görə ən yaxın nöqtə idi. Madrid razılaşdı. Lakin Kanar adaları hökumətinin başçısı bəyan etdi: "Mən onun Kanar adalarına çatmasına icazə verə bilmərəm. Təhlükəsizlik zəmanəti yoxdur". O, baş nazirlə görüş tələb etdi.

İspaniya Səhiyyə Naziri gəminin üç gün ərzində Tenerife adasına çatacağını açıqladı. Bütün xəstə sərnişinlər artıq təxliyə edilib və sağlam sərnişinlər simptomsuzdur. İspanlar Madrid xəstəxanasına aparılacaq, əcnəbilər isə dərhal geri qaytarılacaqlar. Lakin adanın rəhbəri təslim olmur. Ölkə razılaşsa da, ada razılaşmır. Yüzdən çox insan dənizdə gözləməyə davam edir.

### Simptomlar, risklər, qarşısının alınması

Xəstəlik gizli şəkildə başlayır, əvvəlcə yüksək hərarət, baş ağrısı, əzələ ağrıları və ürəkbulanma ilə müşayiət olunur. Erkən mərhələlərdə asanlıqla qrip və ya qida zəhərlənməsi ilə səhv salına bilər. İnkubasiya dövrü bir həftədən altı həftəyə qədərdir. Bir neçə gün ərzində kəskin pisləşmə, o cümlədən ağrılı öskürək, nəfəs darlığı, tənəffüs çatışmazlığı və ya böyrək çatışmazlığı baş verə bilər. Reanimasiya olmadan nəticə ölümcül ola bilər.

Hantavirus üçün spesifik bir müalicə yoxdur. Müalicə dəstəkləyicidir: oksigen, süni tənəffüs aparatları və dializ.

Vəba və hantavirus müxtəlif miqyaslı xəstəliklərdir, lakin ssenari əsrlər boyu dəyişməz qalıb. 14-cü əsrdə ticarət gəmiləri Qara Ölümü Avropa limanlarına gətirdi, hakimiyyət orqanları sərhədləri bağladı, yoluxmuşların sahilə çıxmasına icazə verilmədi və ölüləri daşıyan gəmilər dənizdə üzməyə buraxıldı. İndi isə hantavirus daşıyan kruiz gəmisi Kabo-Verde sahillərində lövbər salıb. Vəziyyət eynidir, yalnız virus fərqlidir və ölüm nisbəti daha aşağıdır.

1720-ci ildə "Böyük Müqəddəs Entoni" ticarət gəmisi Marselə vəba gətirdi. Yükün sahibləri mənfəətlərini qorumaq üçün gəmidə xəstə insanların olduğunu gizlətdilər. Nəticədə vəba yüz minlərlə insanın - şəhər əhalisinin üçdə birinin - həyatına son qoydu. Bugünkü hekayə də eyni məntiqə əsaslanır: itki qorxusu, karantindən yayınmaq cəhdi və gəmini limanda qəbul etməkdən imtina.

***Ağarza Elçinoğlu***

# Aliment geri qaytarıla bilər? - Hakimdən açıqlama

***Nikahın pozulması zamanı aliment öhdəliyinin hansı tarixdən hesablanması məsələsi vətəndaşları maraqlandıran suallardandır.***



Bəs bu məsələ qanunvericilikdə necə tənzimlənir?

"Unikal"ın məlumatına görə, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Gülnar Cabbarova qeyd edib ki, ilk dəfə alimentin tutulması müəyyən edildiyi halda aliment məhkəməyə hansı tarixdə iddia ərizəsi ilə müraciət edilibsə, həmin tarixdən hesablanır, tutulur. Məsələn, vətəndaş iddia ərizəsi ilə 1 fevral 2025-ci il tarixdə müraciət edibsə, məhkəmə qətnaməsinin hansı tarixdən qəbul edilməsindən asılı olmayaraq, alimentin tutulması müraciət etdiyi tarixdən yəni 1 fevral 2025-ci il tarixdən tutulacaqdır.

Hakim qeyd edib ki, qanunvericiliyin tələbinə əsasən, alimentin tutulmasına dair qətnamələr dərhal icra edilir, mahiyyət etibarilə alimentin tutulması halı uşağın mənafeyinə xidmət etməklə, sosial yönümlü xarakter daşıdığından, həmin qətnamələrdən apellyasiya və kassasiya qaydasında şikayət verilməsi, onun icrasını dayandırmır, bu hal yəni alimentin ödənilməsinin dayanmasına səbəb olmur. Hətta şikayət əsasında alimentin təyin edilməsi barədə məhkəmə qətnaməsi ləğv edilərək, iddia tələbi rədd olunarsa və ya alimentin məbləği azaldılarsa, bu hal artıq ödənilmiş aliment məbləği geri qaytarılmasına əsas vermir.

Bildirilib ki, alimenti ödəmək öhdəliyi daşıyan şəxs bu öhdəliyinin lazimi qaydada icra edilməməsinə görə qanunla müəyyən edilmiş qaydada inzibati və ya cinayət məsuliyyəti daşıyır. Alimentin ödənilməsi mahiyyət etibarilə məhz birgə nikahdan olan uşaqların saxlanılmasının və maddi təminatının, uşaq hüquqlarının təmin edilməsinə yönəlmişdir. Bu baxımdan istənilən halda bu kateqoriyadan işlər üzrə mübahisələrin həlli zamanı uşaqların hüquqlarının və mənafelərinin ən üstün müdafiəsi hər birimizin əsas amalı kimi çıxış edir.

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:02 PM Page 14



# 2026-cı ilin ilk 3 ayında Astaranın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri belə olub

***2026-cı ilin yanvar-mart aylarında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 13,2 faiz azalaraq 48207,6 min manat olmuşdur. İstehsal edilmiş məhsul və xidmətlərin rayon əhalisinin hər nəfərinə düşən dəyəri 424,0 manat təşkil etmişdir.***

Məhsul və xidmətlərin 54,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 28,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 13,5 faizi sənaye, 2,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,5 faizi informasiya və rabitə, 0,2 faizi tikinti sahələrində istehsal edilmişdir.

Sənaye sektorunda 2026-cı ilin yanvar-mart aylarında 6524,7 min manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 65,6 faiz az sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 49,0 faizi emal sektorunda, 50,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Sənayedə qeyri-dövlət sektorunun payı 49,0 faiz olmuşdur.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 85,3 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 2,5 dəfə artmışdır. İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 aprel 2026-cı il vəziyyətinə 2022,4 min manatlıq hazır məhsul olmuşdur.




Kənd təsərrüfatında yaz tarla işləri davam edir və 2026-cı ilin yanvar-mart aylarında 1561,1 hektar sahədə və ya 2025-ci ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz az yazlıq bitkilərin səpini aparılmışdır. Bu dövrdə 226,4 hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 65,4 hektarı dən üçün qarğıdalı), 695,0 hektar sahədə kartof, 554,8 hektar sahədə tərəvəz, 5,5 hektar sahədə bostan bitkiləri, 79,4 hektar sahədə çoxillik otlar əkilmişdir.

2026-cı ilin yanvar-mart aylarında diri çəkidə 1027,0 ton ət, 6326,3 ton süd, 2558,0 min ədəd yumurta istehsal olunmuşdur. 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə ət istehsalı 0,2 faiz, süd istehsalı 0,3 faiz, yumurta istehsalı isə 0,2 faiz artmışdır.

Hesabat dövründə 13913,6 min manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,3 faiz çox kənd təsərrüfatı məhsulu istehsal edilmişdir.

2026-cı ilin yanvar-mart aylarında əsas kapitala 3953,6 min manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 21,6 faiz az vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3802,0 min manatı və ya 96,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 397,0 min ton yük və 2033,0 min sərnişin daşınmışdır. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 5,0 faiz, sərnişin daşınması isə 6,9 faiz artmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş 240,4 min manatlıq xidmətlərin 64,6 faizi əhali sektoruna aid olmuşdur. 2026-cı ilin yanvar-mart aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə artmış, bu sahədə əldə edilmiş gəlirin 67,6 faizi dövlət sektorunun payına düşmüşdür.

2026-cı ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 80154,4 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 8038,4 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 0,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 6,2 faiz artmış, ticarət şəbəkəsində 45775,0 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 34379,4 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2026-cı ilin yanvar-mart aylarında istehlak qiymətləri indeksi 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 104,9 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 109,0 faiz, qeyri-qida malları üzrə 100,7 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 102,5 faiz təşkil etmişdir.

2026-cı ilin yanvar-fevral aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2025-ci ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 708,7 manata çatmışdır.

İlkin hesablamalara əsasən 2026-cı ilin yanvar-mart aylarında əhalinin sayı 94 nəfər və ya 0,1 faiz artaraq 2026-cı il aprel ayının 1-i vəziyyətinə 113740 nəfərə çatmışdır.

**MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR**

| Göstəricinin adı | 2026-cı ilin yanvar-mart ayları, faktiki | 2026-cı ilin yanvar-mart ayları 2025-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün 2025-ci ilin yanvar-mart ayları 2024-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi məhsul və xidmətlər, min manat** | 48207,6 | 86,8 | 83,8 |
| **Əhalinin hər nəfərinə düşən həcmi, manat** | 424,0 | 97,2 | 91,5 |
| **Sənaye məhsulu, min manat** | 6524,7 | 34,4 | 67,1 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat** | 3953,6 | 78,4 | 44,9 |
| o cümlədən: tikinti-quraşdırma işlərinə | 3802,0 | 79,0 | 43,9 |
| **Kənd təsərrüfatı məhsulu, min manat** | 13913,6 | 100,3 | 99,8 |
| o cümlədən: bitkiçilik | - | - | - |
| heyvandarlıq | 13913,6 | 100,3 | 99,8 |
| **Nəqliyyat sektorunda yük daşınması, min ton** | 397,0 | 105,0 | 105,0 |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin** | 2033,0 | 106,9 | 105,0 |
| **İnformasiya və rabitə xidmətləri, min manat** | 240,4 | 3,3 dəfə | 23,4 |
| **Pərakəndə ticarət dövriyyəsi, min manat** | 80154,4 | 100,2 | 100,3 |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat** | 8038,4 | 106,2 | 103,1 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | 708,7* | 101,5** | 112,2*** |
| **Yeni iş yerləri, vahid** | 23 | 74,2 | 2,6 dəfə |
| **İstehlak qiymətlərinin indeksi** | x | 104,9 | 107,6 |
| **Əhalinin sayı, 2026-cı il 01 aprel vəziyyətinə, nəfər** | 113740 | 100,7 | 100,8 |

***Astara Rayon Statistika İdarəsi***



# Rövşən Rzayev İctimai Şuranın üzvləri ilə görüşdü

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın növbəti iclası keçirilib. Müvafiq sahədə dövlət siyasətinin həyata keçirilməsinə dəstək verilməsi, Böyük Qayıdış prosesində ictimai nəzarətin və iştirakçılığın təmin edilməsi, vətəndaşların müraciətlərinin cavablandırılması və digər məsələlər iclasda ətraflı müzakirə olunub.***

"Unikal" xəbər verir ki, müzakirəyə çıxarılan məsələlərlə bağlı İctimai Şuranın sədri Anar Xəlilovun məlumatı dinlənilib. Bildirilib ki, Prezident İlham Əliyevin tapşırıqlarına və Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbir Planına əsasən, keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə bərpa edilən və yenidən tikilən yaşayış məntəqələrində daimi məskunlaşdırılması uğurla həyata keçirilir. Şura üzvləri Böyük Qayıdışla bağlı tədbirlərdə fəal iştirak edir, bu prosesin təşkilinin bütün mərhələlərində ictimai rəyi öyrənir, öz ata-baba yurduna geri dönən vətəndaşlarla görüşlər keçirirlər. İctimai Şuranın üzvlərinə müraciətlərin operativ qaydada həll edilməsi üçün Dövlət Komitəsinin struktur bölmələrinin rəhbərləri ilə interaktiv əlaqə mövcuddur. Bu cür əməkdaşlıq təkcə Böyük Qayıdışla deyil, ümumilikdə məcburi köçkünlərlə bağlı bütün məsələlərin diqqətdə saxlanılmasına və vaxtında həll edilməsində əhəmiyyətli rol oynayır.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev İctimai Şuranın üzvləri ilə görüşərək, onlarla səmərəli əməkdaşlığın qurumun öz işini daha da təkmilləşdirməsi, qarşıya qoyulan vəzifələri ictimai iştirakçılıq şəraitində, şəffaf şəkildə yerinə yetirməsi üçün vacib olduğunu qeyd edib. Bildirib ki, Şura üzvləri tərəfindən səsləndirilən təkliflərə, irəli sürülən təşəbbüslərə daim diqqət göstərilir. Böyük

Qayıdış prosesində ictimai nəzarətin təşkil edilməsi, keçmiş məcburi köçkünlərlə birbaşa əlaqələrin qurulması və Dövlət Komitəsinə ictimai rəyin çatdırılması Şuranın fəaliyyətinin təqdirəlayiq cəhətidir.

Daha sonra Dövlət Komitəsinin struktur bölmələrinin nümayəndələri ilə İctimai Şura üzvləri arasında fikir mübadiləsi aparılıb.

# Avtomobil bazarında son vəziyyət

***Avtomobil bazarında aktivlik əvvəlki formada deyil. Rəsmi statistika da göstərir ki, bu il ölkəyə gətirilən avtomobillərin sayında azalma var.***

"Unikal" Xəzər Tv-yə istinadən xəbər verir ki, ötən il Azərbaycana 123 mindən çox avtomobil idxal edilib. Bu ilin ilk açıqlanan göstəricilərində isə idxalın ötən ilin eyni dövrü ilə müqayisədə təxminən üçdəbir azaldığı görünür. Bu azalma daha çox bazarın istiqamət dəyişməsi ilə izah olunur.

Yeni şərtlər bazarda alıcı davranışını da dəyişib. Əvvəl güzəştli hibrid avtomobillər daha çox diqqət çəkirdisə, indi alıcıların bir hissəsi qiymət baxımından daha əlçatan maşınlara üstünlük verir. Bu səbəbdən ikinci əl avtomobillərə maraq artır.

Sahibkarlar da əvvəli kimi yalnız Çin bazarına fokuslanmırlar. Amerika hərracları, Cənubi Koreya və Avropa bazarları yenidən daha aktiv istiqamətə çevrilir.

Mütəxəssislərin fikrincə, bu proses avtomobil bazarının kiçilməsi yox, yenidən formalaşması kimi qiymətləndirilməlidir.



# Xanım Baş nazir istefa verdi

***Latviya hökumətinin başçısı Evika Silinya istefa verdiyini elan edib. O, bununla bağlı bəyanatı xüsusi təşkil edilən mətbuat konfransında verib.***

"Unikal" xəbər verir ki, bu barədə Latviyanın milli teleradio şirkəti LSM-in portalında məlumat verilib.

Latviyada davam edən hökumət böhranı mayın 7-də bu ölkənin hava məkanına bir neçə dronun daxil olmasından sonra müdafiə naziri Andris Sprudsun istefa verməsindən sonra başlayıb. Həmin dronlardan biri ölkənin ərazisindəki neft anbarlarından birinə düşmüşdü.

Müdafiə nazirinin istefası Evika Silinyanı dəstəkləyən siyasi partiyaların hərəkətə keçməsinə səbəb olub. Onlar bəyan ediblər ki, Baş nazirə daha etimad göstərmirlər.

# Məşhur narkobaron Türkiyədə saxlanıldı

***Mərakeşin ən böyük narkobaronlarından biri və beynəlxalq axtarışda olan Məhəmməd Bulaxrif Türkiyədə saxlanılıb.***

"Unikal" xəbər verir ki, o, Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) və İstanbul Narkotiklərlə Mübarizə qrupları tərəfindən Şişlidə keçirilən əməliyyatda nəzarətə götürülüb.

Qeyd olunur ki, şübhəli hazırda polis bölməsində dindirilir.

*Gülayə Mecid*

# Kiyevə kütləvi raket hücumu olub

***Rusiya ordusu Kiyevə qarşı kütləvi raket hücumu həyata keçirib.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, hücum nəticəsində Ukrayna Silahlı Qüvvələrinin (USQ) istifadə etdiyi obyektlərə ciddi ziyan dəyib. Qeyd ounur ki, paytaxt şəhərdə yanacaqdoldurma məntəqəsinə də raket düşüb.

Bununla yanaşı, Kiyev meri Vitali Kliçko şəhərə kütləvi hücumla bağlı xəbərdarlıq edib. O bildirib ki, ballistik raketlərlə yanaşı, dronlar da paytaxta zərbələr endirib. Hadisə nəticəsində itkilər var.

# "Ukraynada 80-dən çox ərazini ələ keçirmişik" - Şoyqu

***Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun sözlərinə görə, 2026-cı ilin əvvəlindən bəri Rusiya hərbçiləri Ukraynada 80-dən çox yaşayış məntəqəsi üzərində nəzarəti ələ keçirib.***

"Unikal" xəbər verir ki, o, bunu Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv dövlətlərin Təhlükəsizlik Şurası katiblərinin Qırğızıstanın paytaxtında keçirilən görüşdə deyib.

Şoyqu qeyd edib ki, bu ilin əvvəlindən bəri onlar Rusiya Silahlı Qüvvələri 1800 kvadrat kilometrdən çox ərazini və 80-dən çox yaşayış məntəqəsini nəzarətə götürüblər.

*Gülayə Mecid*

# İran nüvə silahına sahib olmamalıdır! - Tramp və Cinpin razılaşdı

***Çin və ABŞ liderləri Si Cinpin və Donald Tramp İranın nüvə silahına sahib olmamalı olduğu barədə razılığa gəliblər.***



"Unikal" xəbər verir ki, bu barədə Ağ Evin mətbuat xidməti bəyanat yayıb.

"Hər iki ölkə İranın heç vaxt nüvə silahı əldə etməməsi barədə razılığa gəlib", - bəyanatda deyilir.

*Gülayə Mecid*

# "Gələcəyimiz Qərbi Azərbaycan olacaq" - Köçəryan

***"Əgər Nikol Paşinyan 2026-cı ildə seçilərsə, gələcəyimiz Qərbi Azərbaycan olacaq".***



"Unikal" xəbər verir ki, bunu "Ermənistan" blokunun baş nazirliyə namizədi, keçmiş prezident Robert Köçəryan deyib.

Köçəryan qeyd edib ki, Paşinyanın 2018-ci ildə vəd etdiyi hər şey uğursuz olub: "Vəziyyət o qədər absurddur ki, məntiqi zəncirə sığmır. Xalqa yenə də deyirlər ki, birincilər günahkardır, amma Paşinyan özü günahkar deyil. Siz bu yolla getməyə hazırsınız? Mən hazır deyiləm. Komandamız mübarizəyə qoşulub və vəd etdiyi hər şey yerinə yetirilib.

Əgər bir gün səbri tükənib "Aİİ-dən çıxın" desə, biz nə edəcəyik? Əgər ləyaqətimiz varsa və uşaqlarımızın gələcəyindən narahatıqsa, onda Paşinyanın əlindən tutub onu dayandırmalıyıq".

*Ağarza Elçinoğlu*

# "Sizin dostunuz olmaq şərəfdir" - Tramp

***Pekində Çin prezidenti Si Cinpinlə görüşən ABŞ prezidenti Donald Tramp iki ölkə arasındakı münasibətlərdən danışıb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, Tramp Çin və Amerika arasında qarşıda parlaq gələcəyinin olduğunu ifadə edib.

"Sizinlə birlikdə olmaq şərəfdir. Sizin dostunuz olmaq şərəfdir", - deyə Amerika lideri Cinpinə deyib.

O, əlavə edib ki, Vaşinqtonla münasibətlər əvvəlkindən daha yaxşı olacaq.

Trampın Çinə dövlət səfəri 13 mayda başlayıb. Tanınmış iş adamları Amerika lideri ilə birlikdə Çin tərəfi ilə gəlirli müqavilələr bağlamağa çalışaraq Çinə gediblər. Tərəflərin ABŞ-İran müharibəsini və Pekin ilə Moskva arasındakı münasibətləri müzakirə etdiyi bildirilir.

*Gülayə Mecid*



# Keçmiş PA rəhbəri çirkli pulların yuyulmasına görə həbs edildi

***Ukrayna Prezidenti Administrasiyasının keçmiş rəhbəri Andrey Yermak barəsində 140 milyon (3 milyon 182 min dollardan çox) qrivna girov müqabilində həbs qətimkan tədbiri seçilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna mətbuatı yazıb.

Yermak bu halda həbsdən azad ediləcək və ona elektron qolbaq veriləcək.

Qeyd olunub ki, prokurorluq Yermak üçün 180 milyon qrivna məbləğində girov qoyulması ehtimalı ilə həbs qətimkan tədbiri istəyib.

Xatırladaq ki, SAPO və NABU əməkdaşları Ukrayna Prezidenti Aparatının keçmiş rəhbəri Andrey Yermakla bağlı istintaq aparıblar. Bundan sonra NABU bildirib ki, istintaqa görə, keçmiş aparat rəhbərinə elit fərdi evlərin tikintisi üçün çirkli pulların yuyulması sxemində iştirak etdiyinə görə şübhə ilə yanaşılıb.

İş Kiyev yaxınlığındakı Kozın şəhərində "Dynasty" adlı elit kottec şəhərciyinin tikintisi ilə bağlıdır. Hüquq-mühafizə orqanlarının məlumatına görə, cinayətkar qrupa həmçinin iş adamı Timur Mindiç və keçmiş baş nazirin müavini Oleksiy Çernışov da daxil idi.

Təqsirləndirilən şəxslər təxəllüslərdən istifadə ediblər (xüsusən də Yermaka R2 kodu verilib) və maliyyələşdirmə həm mənzil-tikinti kooperativi vasitəsilə, həm də böyük məbləğdə nağd pulu birbaşa iş icraçılarına köçürməklə həyata keçirilib.

*Ağarza Elçinoğlu*

# "ABŞ-nin əsas geosiyasi problemi budur" - Rubio

***"Çin ABŞ üçün əsas geosiyasi problemdir".***



"Unikal" xəbər verir ki, bunu ABŞ dövlət katibi Marko Rubio "Fox News"a verdiyi müsahibədə bildirib.

Onun sözlərinə görə, ABŞ geosiyasi rəqabətə baxmayaraq dünyada sabitliyi qorumaq üçün Çinlə münasibətlərində tarazlıq tapmalı və onunla sağlam münasibətlər saxlamalıdır.

"Çin həm ən böyük geosiyasi çətinliyimizi, həm də qorunub saxlanılması vacib olan münasibətlərimizi təmsil edir. Bizim maraqlarımız onların maraqları ilə ziddiyyət təşkil edəcək. Müharibədən qaçmaq və dünyada sülhü və sabitliyi qorumaq üçün bu münaqişələri idarə etməliyik", - deyə o, ifadə edib.

*Gülayə Mecid*

18_27 IYUl-QARA.qxd 5/14/2026 10:02 PM Page 16



# "Bakı-Xankəndi" velosiped yarışına yekun vurulub




***Yeni Zelandiyalı Coş Barnett "Bakı-Xankəndi" Azərbaycan velosiped yarışının V mərhələsinin qalibi olub.***

"Unikal" xəbər verir ki, İspaniyanın "Burqos" komandasının üzvü finişə birinci çatıb. Burnett Tərtər - Xankəndi marşrutu üzrə 181,3 kilometrlik məsafəni 4 saat, 16 dəqiqə, 35 saniyəyə qət edib.

"Astana"dan Henok Mulubrhana ikinci, "Burqos"un digər üzvü, uruqvaylı Erik Antonio Faqundes üçüncü yeri tutub.

İlk mərhələdə finişə Çinin "Li-Ninq Star" komandasının belaruslu üzvü Aleksey Şnirko birinci çatıb. Növbəti gün "Astana"nın qazaxıstanlı velosipedçisi Yevgeni Fyodorov qalib olub. Üçüncü mərhələdə "Astana"nın rusiyalı üzvü Qleb Suritsa, dördüncü mərhələdə isə İtaliyanın "Bardiani CSF 7 Saber" komandasından Marko Manenti bütün rəqiblərini qabaqlayıb.

Xatırladaq ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı yarışında dünyanın 20 ölkəsini təmsil edən 24 komanda mübarizə aparır. Turnirin mükafat fondu 50 000 avrodan çoxdur.

# Ronaldo yenə sərvətinə sərvət qatdı

***Dünyanın ilk milyarder futbolçusu Kriştiano Ronaldo biznes portfelinə daha bir investisiya əlavə edib.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, Ronaldonun Braziliyada yerləşən CazeTV ilə əlaqəli beynəlxalq yayım platforması olan LiveModeTV-nin səhmlərini aldığı açıqlanıb. Portuqaliyalı ulduzun, xüsusən də 2026-cı il Dünya Kubokundan əvvəl rəqəmsal idman yayımı sektorunda böyüməyi hədəflədiyi bildirilir.




Qeyd edək ki, LiveModeTV-nin 2026-cı il FIFA Dünya Kuboku üçün pulsuz rəqəmsal yayım hüquqlarını təmin etmək üzərində işləyir. Şirkətin, xüsusən də Braziliya xaricindəki bazarlara genişlənməyə böyük sərmayə qoyduğu deyilir.

Kriştiano Ronaldonun ümumi sərvətinin təxminən 1,4 milyard dollar olduğu təxmin edilir. CR7 brendi, hotelləri, idman zalları və media investisiyaları ilə biznes dünyasında böyüməyə davam edən Ronaldonun gələcəkdə futbol klubu almağı da planlaşdırdığı bildirilir.

*Gülayə Mecid*

# Nəriman oynadı, komandası uduzdu

***Azərbaycan millisinin futbolçusu Nəriman Axundzadə ABŞ-nin "Kolambus Kryu" klubunda növbəti oyununu keçirib.***

"Unikal" xəbər verir ki, 21 yaşlı hücumçu MLS-in müntəzəm mövsümün XIII turunun "Nyu-York Red Bulls"la səfər matçında meydana çıxıb. Gənc forvard 85-ci dəqiqədə Taha Habrunu əvəzləyib.

Qarşılaşma ev sahibi komandanın 3:2 hesablı qələbəsi ilə başa çatıb. Bu nəticədən sonra "Kolambus Kryu" 12 xalla Şərq Konfransında turnir cədvəlinin 13-cü pilləsində qərarlaşıb.

Qeyd edək ki, ABŞ klubuna qış fasiləsində "Qarabağ"dan keçən Nəriman Axundzadə MLS təmsilçisi ilə 2029-cu ilin yayınadək müqavilə imzalayıb.



# Yeni Zelandiya millisinin dünya çempionatı üçün heyəti açıqlandı

***Yeni Zelandiya millisinin 2026-cı il FIFA dünya çempionatı üçün heyəti açıqlanıb.***

"Unikal" xəbər verir ki, məşqçilər korpusu mundial üçün ilkin heyətə 25 futbolçu cəlb edib. Heyətdə qapıçılar Maks Krokomb, Aleks Paulsen və Maykl Vud yer alıblar. Müdafiə xəttində Kallan Elliot, Tim Peyn, Tayler Bindon, Maykl Boksol, Nando Pijnaker, Tommi Smit, Finn Surman, Liberato Kaçase və Frensis de Vris çıxış edəcəklər. Yarımmüdafiəçi və hücumçular siyahısına isə Laçlan Beyliss, Co Bell, Mett Qarbet, Eli Cast, Ben Old, Aleks Rufer, Sarprit Sinq, Marko Stameniç, Rayan Tomas, Kosta Barbarouses, Kallum Makkouatt, Cessi Randall, Ben Ueyn və Kris Vud daxil ediliblər.



Yeni Zelandiya seçməsi G qrupunda Belçika, Misir və İran yığmaları ilə mübarizə aparacaq.

Qeyd edək ki, dünya çempionatı iyunun 11-dən iyulun 19-dək ABŞ, Kanada və Meksikada təşkil olunacaq.



# PSJ Fransa çempionu oldu

***Futbol üzrə Fransa çempionatının qalibi müəyyənləşib.***

"Unikal" xəbər verir ki, Liqa 1-in XXIX turundan təxirə salınmış oyunda səfərdə "Lans"a 1:0 hesabı ilə qalib gələn PSJ sona bir tur qalmış çempionluğunu elan edib.

Bu nəticədən sonra xallarını 76-ya çatdıran Paris klubu ən yaxın izləyicisi "Lans"ı 9 xal qabaqlayır.

# "Neftçi"nin apellyasiya şikayəti təmin edilmədi

***AFFA-nın Apellyasiya Arbitraj Tribunalı "Neftçi"nin Misli Premyer Liqasının XXIII turunda baş tutan "Turan Tovuz"la matçla bağlı İntizam Komitəsinin qərarından şikayətini təmin etməyib.***

"Unikal" qurumun rəsmi saytına istinadən xəbər verir ki, klubun azarkeşləri tərəfindən təhqiredici pankart açılması səbəbindən martın 11-də paytaxt təmsilçisinin 15000 manat cərimələnməsi barədə çıxarılan qərar qüvvədə saxlanılıb.

Qeyd edək ki, sözügedən qarşılaşma martın 9-da keçirilib.

# Son 9 il ərzində Azərbaycan Kubokunda ilk



***Azərbaycan Kubokunun qalibi adını qazanan "Sabah" ötən mövsümdə əldə etdiyi titulu qoruyub.***

Peşəkar Futbol Liqasından "Unikal"a verilən məlumata görə, Bakı klubu son 9 mövsümdə ilk komanda olub ki, ardıcıl iki dəfə kuboku başı üzərinə qaldırıb.

Sonuncu dəfə buna "Qarabağ" nail olub. Ağdam klubu həmin vaxt ardıcıl 2 dəfə titulunu qoruyaraq üç mövsüm (2014/15, 2015/16, 2016/17) kubok qazanıb.

Daha üç komanda ardıcıl iki dəfə turnirin qalibi adına sahib çıxıb. İki dəfə buna nail olan "Neftçi" öncə 1994/95, 1995/96, ardınca 2012/13, 2013/14-ci illər mövsümlərində bunu bacarıb. Kəpəz" (1996/97, 1997/98) və "Xəzər Lənkəran" (2006/07, 2007/08) da eyni nailiyyəti gerçəkləşdirib.

# İndi "Mançester Siti" ilə "Arsenal"ı cəmi 2 xal ayırır

***Futbol üzrə İngiltərə Premyer Liqasında XXXI turdan təxirə salınmış oyun keçirilib.***

"Unikal" xəbər verir ki, çempionluq uğrunda mübarizə aparan "Mançester Siti" evdə "Kristal Pelas"ı 3:0 hesabı ilə məğlub edib. Qolları Antonio Semenyo, Omar Marmuş və Savinyo vurublar.

Bu qələbədən sonra xallarını 77-yə çatdıran "Mançester Siti" mövsümün başa çatmasına 2 tur qalmış lider "Arsenal"la xal fərqini 2-yə endirib.